# YENİ AZƏRBAYCAN

24 iyul 2025-ci il, cümə axşamı
№ 127 (6954)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

## Bölgədə zaman "Bakı vaxtı" ilə müəyyənləşir...

### Trampın paylaşımı Azərbaycanın diqqət mərkəzində olmasını təsdiqləyir



Bax səh. 2

## Ata vəsiyyəti, oğul qeyrəti...

Bax səh. 3

## Strateji vəzifə!



Bax səh. 3

## Xankəndidən tövsiyə: Heç vaxt təslim olmamaq!

Bax səh. 4

## Mərkəzi Bank uçot dərəcəsini azaltdı



Bax səh. 4

## İnformasiya savaşında sarsılmaz mövqe və ideoloji hazırlıq...

Azərbaycanda bütün sahələrdə olduğu kimi, informasiya texnologiyaları sektorunda da dinamik inkişaf müşahidə olunur. Təsadüfi deyil ki, Azərbaycan Cənubi Qafqazda informasiya cəmiyyətinə keçid strategiyası qəbul edən ilk dövlətdir. Belə ki, Heydər Əliyevin 2003-cü il 17 fevral tarixli Sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" respublikamızda İKT sahəsində yeni bir mərhələnin əsasını qoyub. İnnovasiyalara əsaslanan İKT sektorunun inkişaf etdirilməsi ilə bağlı strategiya Azərbaycanı müasir ölkəyə çevirməyi qarşıya hədəf qoyan Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir.

Respublikamızda informasiya-kommunikasiya texnologiyalarının inkişafına dövlət qayğısı çoxşaxəlidir. Dövlət başçısının müvafiq sərəncamları ilə təsdiqlənən Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının...

Bax səh. 2

## Beynəlxalq tərəfdaşlıq inkişaf etdirilir

Azərbaycanın xarici siyasət kursu çoxvektorluğu ilə seçilir və qarşılıqlı əməkdaşlığa, milli maraqlara əsaslanır. Ölkəmiz bütün beynəlxalq təşkilatlarla əlaqələrin inkişafında maraqlıdır. Hazırkı həssas məqamda Azərbaycan mühüm bir coğrafiyada münbit iqtisadi şərait formalaşdırması ilə diqqəti cəlb etməkdədir - ölkəmizin coğrafi-tranzit imkanlarını, Şərq-Qərb ötürücülük qabiliyyətini önə sürməsi, qlobal münasibətlərin yeni mərhələsini yaratması, mühüm enerji dialoqu platforması formalaşdırması dəyərləndirilir. Xüsusilə, Avropa kontingenti artıq bölgənin lideri olaraq Azərbaycana münasibətdə daha rasional münasibəti ilə seçilir - Azərbaycan dövləti mühüm toplantılarda, fundamental enerji dialoqlarında, yeni nizamın formalaşdırılması yönündə müzakirələrdə əsas dövlətlərdən biri kimi qəbul olunur.

Avropanın hazırkı durumu, enerji tələbatının ödənilməsi yeni enerji təminatı məsələsini aktuallaşdırır - bu isə, Azərbaycanın önəmini daha da qabarıq şəkildə ortaya çıxır. Geosiyasi reallıqlar fonunda Avropa İttifaqı məkanında enerji daşıyıcılarına tələbatın artması...

Bax səh. 5

## Azərbaycan inam və etimad ünvanıdır

Azərbaycan hazırda regional miqyaslı, qlobal xarakterli əməkdaşlıq platformasının mərkəzi oyunçusu rolunu oynayır. Məhz bunun nəticəsində də dünyada Azərbaycanın dostları artmaqdadır. Bir çox ölkələr Azərbaycanı dost və etibarlı tərəfdaş hesab edir. Bu etimad sayəsində respublikamız bəzi ölkələr arasında yaranmış problemlərin həllində uğurlu vasitəçilik və ev sahibliyi edir. Bəzi xarici kütləvi informasiya vasitələrinin məlumatına görə, Azərbaycanda növbəti dəfə İsrail və Suriya nümayəndələrinin görüşü keçiriləcək. Xatırladaq ki, ilk belə görüş Suriyanın keçid dövrü prezidenti Əhməd əş-Şaranın ölkəmizə səfəri zamanı baş tutmuşdu. Görüşün İsrailin milli təhlükəsizlik müşaviri Tsaxi Xaneqbi ilə Suriya xarici işlər naziri Əsaad əş-Şibani arasında keçirildiyi bildirilirdi.

Bu dəfə Səudiyyə Ərəbistanının "Əl-Hadas" telekanalı öz mənbələrinə istinadən xəbər verir ki, İsrail nümayəndə heyətinin Suriya tərəfi ilə razılaşmaları yekunlaşdırmaq məqsədilə Azərbaycana səfəri gözlənilir. "Al-Arabiya" nəşri isə ABŞ-ın vasitəçiliyi və Türkiyənin dəstəyi ilə İsrail və Suriya arasında təhlükəsizlik...

Bax səh. 5

## Yaponiyada hakim partiyaya zərbə...

Yaxın zamanda Yaponiya hökumətində ciddi dəyişiklik baş verə bilər. Belə ki, ölkənin "Kyodo" agentliyinin məlumatına görə, Yaponiyanın Baş naziri Şiqeru İşibanın avqustun sonunda öz vəzifəsindən istefası gözlənilir. Agentliyin məlumatında qeyd olunur ki, bazar günü parlamentin yuxarı palatasına keçirilən seçkilərdə Ş.İşibanın Liberal Demokrat Partiyası (LDP) və onun koalisiya tərəfdaşı Komeito qələbə çalsa da, palatadakı bir çox yerləri itirib. Ölkənin müasir tarixində bu, ilk belə siyasi hadisədir. Yuxarı palatada koalisiya indi 248 yerin yarısından azına nəzarət edir, bu da hökumətin qanun qəbul etmək imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Müxalif partiyalar - Konstitusiya Demokratiya Partiyası və Xalqın Demokratiya Partiyasının parlamentdəki yerlərinin sayı artıb. Tez-tez ifrat sağçı kimi xarakterizə edilən Sanseito partiyası isə təmsilçiliyini 2 yerdən 14-ə yüksəldib. Qeyd edək ki, bu, İşiba üçün ardıcıl ikinci böyük seçki məğlubiyyətidir - ötən ilin payızında hakim koalisiya parlamentin aşağı palatasında da yerlərin əksəriyyətini itirmişdi. Baş nazir İşiba hökumətin gələcəyi...

Bax səh. 7

## Dünyanın gözlədiyi atəşkəs və regionda sülh...



Bax səh. 7

## Makron + Bayru = 37



Bax səh. 7

# Bölgədə zaman “Bakı vaxtı” ilə müəyyənləşir...

## Azərbaycan sülhün və əməkdaşlığın formalaşdırılması uğrunda səy göstərir

## Trampın paylaşımı Azərbaycanın diqqət mərkəzində olmasını təsdiqləyir



Azərbaycan son illərdə beynəlxalq münasibətlər sistemində qazandığı uğurlar və statusa görə diqqət mərkəzindədir. 2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirlərinin ardından Bakı qlobal dünya tərəfindən regional aktor kimi qəbul edilirdisə, bu gün tamam fərqli bir mənzərə formalaşmaqdadır. Azərbaycan sivilizasiyalararası münasibətlərin inkişafında vasitəçi və tənzimləyici rolda çıxış edir, klassik rəqabətə və ya düşmənçiliyə malik ölkələr arasında sülhün və əməkdaşlığın formalaşdırılması uğrunda səy göstərir. Çox hallarda isə buna nail olur - ortadakı faktlar söylədiklərimizi əyani şəkildə sübuta yetirir. Bakının əldə etdiyi bu uğurlar isə olduqca vacib kriteriyalara əsaslanır:

- Biz bütün proseslərin beynəlxalq hüquq çərçivəsində həllinin tərəfdarı qismində çıxış edirik;
- Münaqişə və qarşıdurmaların danışıqlar yolu ilə tənzimlənməsini təşviq edirik;
- Rasional əməkdaşlığa, praqmatik tərəfdaşlığa və qarşılıqlı milli maraqlara uyğun əlaqələrə üstünlük veririk;
- Ən əsası münasibətlərdə gərginliyə deyil, sabitliyə və dürüstlüyə istinad edirik.

**Müharibələrə başlamamış yeganə ABŞ Prezidenti...**

Bəli, Azərbaycanın çoxvektorlu siyasi-iqtisadi tərəfdaşlıq konsepsiyası bu kimi mühüm tezislərə əsaslanır. Bunun nəticəsidir ki, ölkəmiz dünyanın bir çox aparıcı dövlətləri, güc mərkəzləri ilə siyasi əlaqələrini gücləndirir. Son 1 illik dövrdə Çin Xalq Respublikası ilə hərtərəfli strateji əlaqələrin formalaşdırılması və rəsmiləşdirilməsi, son 6 ayda ABŞ ilə münasibətlərin yeni mərhələyə qədəm qoyması bunu təsdiqləyir. Xüsusilə, Donald Trampın hakimiyyətə gəlişinin ardından Vaşinqton-Bakı münasibətlərində yeni kontentlər meydana çıxıb. Bu, Trampın bəyan etdiyi aparıcı tezislərin, söykəndiyi ideoloji əsasların müəyyən mənada bizim dəyərlərimizlə səsləşməsindən də qaynaqlanır. Prezident İlham Əliyevin də ifadə etdiyi kimi, Tramp bizim kimi fundamental dəyərləri, o cümlədən ailə dəyərlərini bölüşür: “O, müharibələrə başlamamış yeganə ABŞ Prezidentidir. Həm də hakimiyyətdə olduğu qısa müddətdə müharibələrə son qoyan bir adam olduğu aydın görünür”.

Bu, olduqca vacib bir amildir - Azərbaycan dövləti hətta işğala məruz qaldığı zamanlarda belə problemin sülh və danışıqlar yolu ilə həllinin tərəfdarı qismində idi. Erməni terroruna məruz qalan Azərbaycan dünyada təhlükəsizliyin təmini ilə bağlı bütün proseslərdə aktiv iştirak edirdi. Bu istiqamətdə Bakı Vaşinqtonun ən yaxın tərəfdaşlarından birinə çevrilmişdi. Dünyanın ayrı-ayrı regionlarında antiterror fəaliyyətlərdə yaxından iştirakımız bizim bu təhdidə qarşı münasibətimizi müəyyənləşdirirdi. Donald Trampın da fikirlərində müharibələrin başa çatdırılması, sülh və əmin-amanlıq, əməkdaşlıq və iqtisadi əlaqələrin inkişafı kimi tezislər ana xətt kimi keçir.

**Mühüm tendensiyaların davamı...**

Bu gün Azərbaycan-ABŞ əlaqələrindən gözləntilər böyükdür. Diqqət yetirsək, yeni nizamın formalaşmasında Azərbaycanın rolu günü-gündən artır. İstər Avropa ilə Asiya arasında əlaqələrin daha intensiv formaya keçməsində, istərsə də Şərqin yeni iqtisadi adaptasiya prosesinə inteqrasiyasında oynadığı rol Azərbaycan üçün mühüm üfüqlər yaradıb. Bu gün ABŞ açıq şəkildə yeni dövrdə Bakıya etibar etdiyini və ölkəmizin sülh uğrunda ortaya qoyduğu səyləri dəstəklədiyini bildirir. Donald Trampın prezident seçilməsindən sonra Prezident İlham Əliyevə ünvanladığı



məktublarda da əməkdaşlığın gücləndirilməsi, əlaqələrin intensivləşdirilməsi kimi mövzular açıq şəkildə ifadə olunur. Bu mənada Bakının da gözləntiləri mövcuddur. Prezident İlham Əliyevin bildirdiyi kimi, gözləntimiz böyükdür və ümid edirik ki, yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldıracaq mühüm hadisələr olacaq: “Düşünürəm ki, bu, tamamilə təbiidir, çünki bir çox məsələlər bizi, xüsusən də cənab Trampın Administrasiyası ilə birləşdirir. Yeri gəlmişkən, onun ilk prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətləri çox müsbət olmuşdur. Fikrimcə, artıq gördüyünüz və söylədiyim həmin müsbət tendensiyaların davamı olacaq”.

**Trampın paylaşımı...**

Vaşinqtonun Bakıya münasibəti növbəti bir məsələdə özünü daha qabarıq şəkildə ortaya qoydu - Prezident Donald Tramp Prezident İlham Əliyevin III Qlobal Şuşa Forumunda çıxışın bir hissəni paylaşdı. ABŞ Prezidentinin özünün “Truth” sosial şəbəkə səhifəsində belə bir paylaşım etməsi Bakı-Vaşinqton əlaqələrinin yeni axarını müəyyənləşdirən faktorlardan sayılır.

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa öz sosial şəbəkəsində onun Şuşa Qlobal Media Forumundakı çıxışını paylaşdığına görə təşəkkür edib. Bu barədə dövlətimizin başçısı “X” hesabında bildirib: “Şuşa Qlobal Media Forumunda ABŞ-Azərbaycan tərəfdaşlığı və həmçinin Prezident Donald Trampın həm qlobal, həm də regionumuzda sülh gündəliyinə sadiqliyi ilə bağlı qeyd etdiyim fikirləri öz sosial media platformasında paylaşdığına görə ona minnətdarlığımı bildirmək istərdim.

Mən bir daha Prezident Trampın bütün dünyada, o cümlədən regionumuzda sülhün və sabitliyin təşviq edilməsi ilə bağlı baxışını və səylərini dəstəklədiyimizi vurğulamaq istəyirəm. Biz, həmçinin ailə ənənələrinin əhəmiyyəti kimi ortaq dəyərləri bölüşürük və onun prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətlərinin yeni səviyyəyə qalxacağına ümid edirik. Biz ona bu məqsədə nail olunması istiqamətində bütün səylərində uğurlar arzulayırıq”.

Bütün bunlar isə həm də onu göstərir ki, Azərabaycan dövləti bu gün bölgənin aparıcı siyasi aktoru kimi regional proseslərdə fəal iştirakçı kimi tanınır. Azərbaycanın təşəbbüsü ilə ortaya çıxmış sülh təşəbbüsü, Zəngəzur dəhlizi və bu kimi mühüm qlobal əhəmiyyətə malik proseslər isə yeni nizamda yeni əməkdaşlıq perspektivləri vəd edir...

***P.İSMAYILOV***

# İnformasiya savaşında sarsılmaz mövqe və ideoloji hazırlıq...

## Süni intellektin tətbiqi qlobal rəqabət mühitində önəmli rol oynayacaq

Azərbaycanda bütün sahələrdə olduğu kimi informasiya texnologiyaları sektorunda da dinamik inkişaf müşahidə olunur. Təsadüfi deyil ki, Azərbaycan Cənubi Qafqazda informasiya cəmiyyətinə keçid strategiyası qəbul edən ilk dövlətdir. Belə ki, Heydər Əliyevin 2003-cü il 17 fevral tarixli Sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)” respublikamızda İKT sahəsində yeni bir mərhələnin əsasını qoyub. İnnovasiyalara əsaslanan İKT sektorunun inkişaf etdirilməsi ilə bağlı strategiya Azərbaycanı müasir ölkəyə çevirməyi qarşıya hədəf qoyan Prezident İlham Əliyev tərəfindən ardıcıllıqla davam etdirilir.

### İnformasiya təhlükəsizliyi təmin olunur

Respublikamızda informasiya-kommunikasiya texnologiyalarının inkişafına dövlət qayğısı çoxşaxəlidir. Dövlət başçısının müvafiq sərəncamları ilə təsdiqlənən Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci və 2010-2012-ci illəri əhatə edən dövlət proqramları ölkəmizdə İKT sektorunun inkişafına güclü hüquqi baza yaradıb. İnformasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyanın qəbul edilməsi və s. sənədlər dövlətin bu sahədə siyasətinin ardıcıl xarakter daşıdığının bariz nümunəsidir.

Təbii ki, bütün bunların fonunda informasiya təhlükəsizliyinin təmin olunması daim diqqət mərkəzindədir. Çünki informasiya təhlükəsizliyi müasir dövrün ən mühüm məsələləri sırasında yer alır. Ölkəmizdə informasiya təhlükəsizliyinin təmin olunmasının qanunvericilik bazasının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm qanunlar, normativ aktlar, sərəncamlar qəbul edilib. Bu sahədə əlaqədar qurumlar tərəfindən konseptual, təşkilati, elmi-metodoloji, qanunvericilik, maddi-texniki əsasların yaradılması üzrə iş aparılır.

Bu baxımdan, “Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası” vacib bir sənəddir. 31 səhifədən və 8 bölmədən ibarət olan sənəd hər bölməsində ciddi məqamları vurğulayır, qlobal trendləri, mövcud vəziyyətin təhlilini, hədəf göstəriciləri, məqsədləri, prioritet istiqamətləri, təhdidlərin müəyyənləşdirilməsi və risklərin idarə edilməsini, maliyyələşdirmə mexanizmlərini bölmələrdə göstərir.

### Süni intellekt cəmiyyət həyatının tərkib hissəsinə çevrilir

Göründüyü kimi, informasiya texnologiyaları, rəqəmsal inkişaf cəmiyyətimizin ayrılmaz tərkib hissəsinə çevrilib. Yeri gəlmişkən, Xankəndidə keçirilən “Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda III Şuşa Qlobal Media Forumu da qeyd olunan məsələlərin müzakirəsi baxımından önəmli tədbir oldu. Məlumdur ki, Prezident İlham Əliyevin uzaqgörən və praqmatik liderliyi sayəsində ölkəmiz informasiya və rəqəmsal texnologiyalar istiqamətində də beynəlxalq səviyyədə etibarlı tərəfdaşa çevrilib. Məhz dövlət başçısının iradəsi və siyasi qətiyyəti nəticəsində son illər informasiya təhlükəsizliyinin təmin olunması və rəqəmsal inkişafın qorunması istiqamətində mühüm islahatlar həyata keçirilib.

Qlobal çağırışlara cavab olaraq Azərbaycanın informasiya məkanını süni intellekt və rəqəmsal texnologiyaların yeni imkanları ilə təchiz etməsi, bu sahədə strateji baxış ortaya qoyması birbaşa Prezident İlham Əliyevin ölkəmizin gələcəyinə hesablanmış inkişaf kursunun tərkib hissəsidir. Yeri gəlmişkən, dövlət başçısı bu ilin mart ayında “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası”nı təsdiqləyib. Sənəd ölkəmizdə süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirmək məqsədi daşıyır. Sənəddə qeyd olunur ki, digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da süni intellekt texnologiyaları ölkəmizin iqtisadi və sosial inkişafında və qlobal rəqabət mühitində üstünlüklər əldə etməsində mühüm rol oynaya bilər. Odur ki, bu sahədə sistemli yanaşmaya ehtiyac var. Süni intellektin dövlət idarəçiliyi, iqtisadi, sosial, təhsil, səhiyyə, müdafiə, təhlükəsizlik və digər sahələrə ciddi dəyişikliklər gətirəcəyi, eləcə də bununla bağlı yaranacaq çağırışlar və təhdidlər nəzərə alınaraq, süni intellekt üzrə milli strategiyanın hazırlanması zərurəti yaranıb.

Bu məqsədlə hazırlanmış strategiya ilk növbədə, ölkədə süni intellekt üzrə mövcud vəziyyəti təhlil edir, daha sonra əldə olunan nəticələrə uyğun olaraq və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər planı vasitəsilə sözügedən sahədə strateji məqsədlərə və göstəricilərə nail olmağı hədəfləyir. Strategiyada süni intellekt ekosisteminin formalaşmasını və inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlıq, akademik və elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilir. 2025-2028-ci illər ərzində




həyata keçiriləcək tədbirlər çərçivəsində ilkin mərhələdə süni intellekt üzrə idarəetmənin təkmilləşdirilməsi, süni intellekt siyasətinin formalaşdırılması, məsul dövlət orqanlarının müəyyən edilməsi və dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi nəzərdə tutulur. Bu məqsədlə, süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni təmin etmək üçün normativ hüquqi baza hazırlanacaq, insan hüquqlarına və məlumatların məxfiliyinə xüsusi diqqət yetiriləcək.

### Prezident: Mənim qəbul etdiyim qərarlar yalnız inkişaf və müasirləşmə gündəliyinə əsaslanır

III Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyev süni intellekt mövzusu ilə bağlı verilən suala cavabında özünün qəbul etdiyi qərarların yalnız inkişaf və müasirləşmə gündəliyinə əsaslandığını bildirib.

“Süni intellektlə bağlı nə baş verəcəyini söyləmək mənim üçün çətindir. Çünki bilirsiniz, müxtəlif cəmiyyətlərin fərqli təbəqələrində buna güclü və artan müqavimət var. Bu proses hələ yeni başlayıb, görərik. Mənim üçün indi “nəyə nail olacağıq, nəyə yox” söyləmək düzgün olmazdı. Biz yalnız müəyyən nailiyyətlərimiz olduqda bildiririk”,- deyə dövlət başçısı vurğulayıb.

Beləliklə, sözügedən forum informasiya texnologiyaları və süni intellektin tətbiqi kimi mühüm məsələlərin müzakirəsi baxımından beynəlxalq ekspertlər üçün əvəzsiz bir platforma oldu. Burada aparılan diskussiyalar, qarşılıqlı fikir mübadilələri və tövsiyələr Azərbaycanın bu sahədə mövqeyini daha da möhkəmləndirə, beynəlxalq əməkdaşlıq imkanlarını genişləndirə bilər. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, müasir dövlətin gücü təkcə onun iqtisadi və hərbi potensialı ilə deyil, informasiya savaşlarındakı mövqeyi və ideoloji hazırlığı ilə də ölçülür. Bu baxımdan, III Şuşa Qlobal Media Forumunda aparılan müzakirələr informasiya təhlükəsizliyi və rəqəmsal inkişaf üçün kifayət qədər faydalı oldu.

***Nardar BAYRAMLI***

# Ata vəsiyyəti, oğul qeyrəti...

Azərbaycan xalqının özünəməxsus zəngin milli - mənəvi dəyərlər sistemi var. Bizim bir növ əxlaq-davranış kodeksimizi təşkil edən, həyata baxışımızın çərçivələrini müəyyənləşdirən, bizə əyri və doğru yolu göstərən bu dəyərlər əsrlərin sınağından çıxaraq cilalana-cilalana bu günümüzə gəlib çatmışdır. Azərbaycan xalqının hər yeni nəsli kimi indiki gənclərimiz də məhz bu dəyərlərdən bəhrələnməklə ən müxtəlif sahələrdə Vətənə, xalqa bağlılıqlarını yüksək səviyyədə nümayiş etdirirlər.





## Oğul üçün böyük şərəf

Ata vəsiyyəti, oğul qeyrəti də Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində xüsusi yer tutur. Atanın arzularını yerinə yetirmək, yarımçıq qalan işlərini davam etdirmək oğul üçün ən böyük şərəf sayılır. Oğul ləyaqətli və qeyrətlidirsə, bunu mütləq edir, nə qədər ki, bunu bacarmayıb, özünə rahatlıq tapa bilmir...

"Atamın mənə nə deyə biləcəyinə gəldikdə, əlbəttə, bunu bilə bilmərəm. Amma təxmin edə bilərəm. Məncə, siz də təxmin edirsiniz. Bu, yəqin ki, daha çox ritorik sualdır. Mənim üçün isə atamın vəsiyyətini yerinə yetirmək, eləcə də bu torpaqlardan didərgin düşən, ədalətin bu təntənəsini görmədən dünyadan köçənlərin vəsiyyətlərini yerinə yetirmək böyük şərəf və qürur mənbəyi idi. Mən son beş ildə bu qürur hissi ilə yaşayıram. İnşallah, mən və bütün Azərbaycan xalqı sona qədər bu hisslə yaşayacağıq". Bu fikirləri Prezident İlham Əliyev iyulun 19-da azad Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda keçirilən III Şuşa Qlobal Media Forumunda sualları cavablandırarkən deyib.

Auditoriya kifayət qədər böyük idi. Xankəndinin ev sahibliyi etdiyi forumda 52 ölkədən 140 qonaq, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələri bir araya gəlmişdilər. Mötəbər auditoriya qarşısında dövlət başçısının ata vəsiyyətinə belə ciddi önəm verməsi və bu vəsiyyəti yerinə yetirdiyinə görə özünü xoşbəxt sanmasını qürur hissi ilə ifadə etməsi sıradan bir göstərici deyil. Bu, bir tərəfdən İlham Əliyevin xalqına, milli-mənəvi dəyərlərimizə bağlılığının təsdiqidir. O, siyasət, diplomatiya nəhəngi olsa da, Azərbaycan xalqının mənəvi kodeksinə sıx bağlıdır, verdiyi vədləri yerinə yetirməyi özünə borc sanır və mütləq qaydada yerinə yetirir.

Müdrik siyasətçi Heydər Əliyev Özündən sonra böyük miras qoyub. Bütövlükdə, müstəqil Azərbaycan Onun şah əsəridir. 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə ikinci dəfə respublikamızın siyasi rəhbərliyinə gələn Heydər Əliyev xilaskarlıq missiyasını yerinə yetirdi, müstəqilliyimizin itirilməsinin qarşısını aldı və bütün sahələrdə yeni inkişaf istiqamətləri müəyyənləşdirdi. Onun böyük istəkləri, arzuları, planları var idi. Ancaq ömür vəfa etmədi başladığı işlərin hamısını sona çatdırmağa.

Heydər Əliyev hələ sağlığında ikən əminliklə bildirmişdi ki, Onun sona çatdıra bilmədiyi işləri özü qədər inandığı və ümid bəslədiyi İlham Əliyev həyata keçirəcək. Böyük həyat təcrübəsinə malik olan Heydər Əliyev inamında yanılmamışdı. İlham Əliyev 2003-cü ildə ilk dəfə xalqın etimadını qazanaraq Prezident seçildikdə andiçmə mərasimində əsas vəzifəsinin Ulu Öndərimizin siyasi kursunu davam etdirmək olacağına vəd verdi. O, iyirmi ildən artıqdır ki, bu vədə sadiq qalır və Azərbaycanı zirvələrdən-zirvələrə yüksəldir.

## Ulu Öndərin ən ümdə arzusu

Ulu Öndərin ən böyük arzusu ölkəmizin ərazi bütövlüyünün təmin olunması idi. Xüsusilə də O, zamanında xəyanət nəticəsində düşmən əlinə keçən Şuşanı Azərbaycanın rəmzi kimi səciyyələndirərək əminliklə bildirirdi ki, biz Şuşaya mütləq gedəcəyik.

Heydər Əliyev işğala məruz qalan ərazilərimizin geri qaytarılması istiqamətində müdrik və ardıcıl siyasət apardı. Uzaqgörən siyasətçi olan Heydər Əliyev yaxşı başa düşürdü ki, Azərbaycanın güclənməsi üçün vaxt qazanmaq lazımdır. Məhz Onun böyük səyləri sayəsində 1994-cü ildə atəşkəsə nail olundu. Bundan sonra Azərbaycanın quruculuq dövrü başladı. Ulu Öndərin işləyib hazırladığı yeni neft strategiyasının uğurla reallaşdırılması, transmilli şirkətlərlə imzalanan neft müqavilələrinin sabitlik şəraitində icrası ölkəmizin iqtisadi inkişafına zəmin yaratdı. Sonrakı mərhələdə Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanın iqtisadi potensialına əsaslanmaqla ölkənin ərazi bütövlüyünü təmin etməyə qadir olan güclü Ordu yaratmağa nail oldu. Ulu Öndərin böyük arzularını, vəsiyyətlərini Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev yerinə yetirdi. 44 günlük Vətən müharibəsində Ordumuz misilsiz şücaətlər göstərərək ölkəmizin ərazi bütövlüyünü təmin etməyə nail oldu. 2020-ci il noyabrın 8-də Şuşanın geri qaytarılması ilə Heydər Əliyevin "biz Şuşaya mütləq qayıdacağıq" arzusu çin oldu. Məhz Şuşadakı sarsıdıcı məğlubiyyətdən sonra düşmən məğlubiyyətini etiraf etmək və onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalamaq məcburiyyətində qaldı. "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!", - deyə Prezident İlham Əliyev Şuşanın işğaldan azad edilməsi münasibətilə xalqa müraciətində vurğulayıb.

Bu gün Azərbaycan hər mənada Ulu Öndərin arzuladığı Azərbaycandır. Ulu Öndər güclü Azərbaycanı görmək istəyirdi. Prezident İlham Əliyev bunu təmin edib. Ulu Öndər ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasını arzulayırdı. Prezident İlham Əliyev aylı, ulduzlu üçrəngli bayrağımızı işğaldan azad olunmuş ərazilərimizdə, o cümlədən Xankəndidə, Xocalıda və Şuşada ucaldıb.

***Mübariz ABDULLAYEV***

# Strateji vəzifə!

## Böyük Qayıdış uğurla reallaşır

Otuz ilə yaxın davam edən işğal dövründə ermənilər tərəfindən dağıdılmış Qarabağ və Şərqi Zəngəzur bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Hazırda Azərbaycan dövlətinin əsas missiyası işğaldan azad edilmiş ərazilərimizin bərpa edilməsi, keçmiş məcburi köçkünlərimizin öz doğma yurdlarına qayıtmasını təmin etməkdən ibarətdir. Artıq bu torpaqlara həyat qayıdır. 2022-ci ildə Zəngilanın Ağalı kəndinin məskunlaşdırılması Böyük Qayıdışın ilk müjdəsi oldu.

İşğaldan azad edilmiş ərazilərin bərpası və Böyük Qayıdışın təmin olunması strateji mərhələdə Azərbaycanın əsas prioritetləri sırasında yer alır. Söhbət bütünlüklə dağıdılmış ərazilərin minalardan təmizlənməsindən, şəhər və kəndlərin bərpasından, zəruri infrastruktur qurulmasından gedir. Döyüş meydanında düşməni diz çökdürən və kapitulyasiyaya məruz qoyan qalib Azərbaycan bərpa və quruculuq işlərini də qısa müddətdə və yüksək səviyyədə həyata keçirmək əzmindədir. Hazırda Böyük Qayıdışla bağlı 2022-2026-cı illəri əhatə edən Dövlət Proqramı uğurla icra olunur. Proqram çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda şəhər və kəndlər yenidən tikilir, infrastruktur layihələri icra olunur, yollar inşa edilir, yeni istehsal müəssisələri yaradılır, yaşıllıqlar salınır, ərazilər mina və partlamamış hərbi sursatlardan təmizlənir, keçmiş məcburi köçkünlər mərhələli şəkildə yenidən doğma yurdlarında məskunlaşırlar.

Ötən dövrdə reallaşdırılan layihələr onu deməyə əsas verir ki, respublikamız işğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcək. Azərbaycan dövləti bu kimi amilləri nəzərə alaraq işğaldan azad edilmiş ərazilərin ölkənin digər bölgələrinə reinteqrasiyasına qısa müddətdə nail olunmasına güclü siyasi iradə nümayiş etdirir. İşğaldan azad edilmiş ərazilərimizin bərpası üçün dövlət büdcəsindən milyardlarla manat vəsait ayrılır. Azərbaycan bu işləri kənardan heç bir yardım olmadan, öz gücü ilə həyata keçirir.



**Mühüm infrastruktur layihələri icra olunur**

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı işlər içərisində infrastruktur layihələri mühüm əhəmiyyət kəsb edir. Çünki infrastrukturun yüksək səviyyədə yenidən qurulması həm işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsində, həm də oraya qayıdan insanların normal həyat şəraiti ilə təmin olunmasında mühüm rol oynayacaq. İyulun 19-da keçirilən III Şuşa Qlobal Media Forumunda da Prezident İlham Əliyev azad olunmuş ərazilərdə infrastruktur layihələri ilə bağlı fikirlərini bildirərək deyib: "...Biz birinci dörd ildə daha çox infrastruktur layihələri ilə məşğul idik. Onların əsas hissəsini demək olar ki, bitirmişik. Artıq Qarabağ və Şərqi Zəngəzur dairəvi elektrik şəbəkə ilə artıq təmin edilib, Azərbaycanın ənənəvi elektrik təsərrüfatına da qoşulub. Burada artıq 280 meqavat gücündə su elektrik stansiyaları enerji istehsal edir və bu enerji Qarabağdan Azərbaycanın digər bölgələrinə gedir".

Həyata keçirilən infrastruktur layihələri içərisində yolların yenidən qurulması xüsusi yer tutur. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına əsasən, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, azad olunmuş ərazilərdə Agentlik tərəfindən icra edilən layihələrin sayı 44, ümumi uzunluğu isə 3040.1 kilometr təşkil edir. Bu layihələrin bir hissəsi artıq icra olunub. Bu yaxınlarda ən böyük layihələrdən biri olan Füzuli-Şuşa avtomobil yolu istifadəyə verilib. Təkcə bu yolda 7 tunel inşa edilib. "Tunellərin ümumi uzunluğu 80 kilometrdir. Ən uzun tunel yəqin ki, növbəti iki-üç ayda hazır olacaq. Murov dağının altındakı tunelin uzunluğu, - təkcə bir tunelin uzunluğu, - 11 min 700 metrdir. Yəni bu, dünya miqyasında ən uzun tunellərdən biridir"- deyə dövlət başçısı vurğulayıb.

Genişmiqyaslı yenidənqurma işləri çərçivəsində dəmiryol infrastrukturu da bərpa edilir. Artıq Bərdə-Ağdam dəmir yolu xəttinin çəkilişi başa çatıb. Ağdam avtovağzal və dəmiryolu vağzalı kompleksinin açılışı da reallaşıb. Horadiz-Ağbənd dəmir yolu xəttinin tikinti işləri isə davam etdirilir. Prezident İlham Əliyev bu barədə deyib: "İndi Ağdama qatarla rahat getmək mümkün olacaq. Ağdam-Xankəndi dəmir yolunun təməlini mən bu yaxınlarda qoymuşam. Xankəndi-Şuşa kanat yolunun da tikintisi yəqin ki, yaxın zamanlarda başlayacaq və çox mənzərəli bir vasitə olacaq".

**İndiyədək 18 yaşayış məntəqəsinə qayıdış reallaşıb**

Qarabağ və Şərqi Zəngəzurda reallaşan infrastruktur layihələri arasında hava yolları da müstəsna əhəmiyyət daşıyır. Artıq Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava Limanları tikilərək istifadəyə verilib. İşğaldan azad olunmuş ərazilərdə tikilən hava limanları bölgənin əhəmiyyətini artırmaqla yanaşı, gələcəkdə turizm potensialının artmasına da imkan yaradacaq.

Təbii ki, bu prosesdə ən önəmli məqam keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının təmin olunmasıdır. Prezident İlham Əliyevin dediyi kimi, indiyədək 18 yaşayış məntəqəsinə qayıdış reallaşıb: "Artıq keçmiş köçkünlərin yaşadıqları yaşayış məntəqələrinin sayı 18-ə çatıb. Xankəndidə Qarabağ Universitetində 1500 tələbə oxuyur, 300 müəllim onlara dərs deyir. Yəni, bütün bunlar bilirsiniz, necə deyim, bizə bir möcüzə kimi gəlir, o cümlədən mənə. Halbuki yəni, sirr deyil ki, bütün bu qərarların verilməsində mənim iştirakım olub. Amma qısa müddət ərzində bu qədər böyük işin görülməsi bu gün bir daha göstərir ki, bizim nə qədər istedadlı xalqımız var".

Beləliklə, Böyük Qayıdış proqramı uğurla həyata keçirilir. Görülən işlər nəticəsində bu torpaqlar dünyanın ən gözəl guşələrindən birinə çevriləcək.

***Nardar BAYRAMLI***

# Xankəndidən tövsiyə: Heç vaxt təslim olmamaq!

## İlham Əliyev: Əmin idim ki, xalq mənim arxamda dayanacaq. Bu da yəqin ki, həlledici amillərdən biri oldu



Keşməkeşli tariximizin qara səhifələrindən olan Qarabağın Ermənistan tərəfindən işğalı 30 ilə yaxın davam etdi. SSRİ-nin dağılması və müstəqillik əldə olunan dövrə təsadüf edən erməni işğalı zamanı ölkəmizdə vəziyyət heç də ürəkaçan deyildi - Ermənistandan, öz ata-baba yurdundan qovulan yüz minlərlə soydaşımız Azərbaycana gəlmişdi. İşğal edilən Qarabağ və ətraf rayonların əhalisi qaçqın vəziyyətinə salınmışdı. Ölkədə baş verən siyasi təlatümlər, nizami ordunun olmaması, sosial problemlərin çoxluğu, paralel olaraq erməni lobbisinin Azərbaycana qarşı apardığı əsassız və qondarma kampaniyalar nəticəsində bir sıra xarici yardımların kəsilməsi gərgin, ümidsiz bir vəziyyət yaradırdı - yenicə müstəqillik əldə etmiş ölkə saysız problemlərin əhatəsinə düşmüşdü.

### Heydər Əliyevin sayəsində vəziyyəti sabitləşdirmək mümkün oldu...

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı sosial-iqtisadi problemlərin həlli ilə yanaşı, həm də xalqımızda gələcəyə böyük ümid yaratdı. Ulu Öndər özünün siyasi kursunun əsas xətti olaraq Qarabağın azad edilməsini müəyyənləşdirdi - bu istiqamətdə yorulmaz fəaliyyət, beynəlxalq tribunalarda ölkəmizin haqqa, ədalətə söykənən mövqeyinin ifadə olunması qısa zamanda vəziyyəti dəyişdi. Ölkə xaricində səsimiz eşidildi, ölkə daxilində isə ümid yarandı - biz Qarabağa qayıdacağıq əminliyi formalaşdı. Prezident İlham Əliyev III Qlobal Şuşa Forumunda çıxışında bildirib ki, Birinci Qarabağ müharibəsi dövrü çox çətin, faciəli idi - çoxsaylı qurbanlar, Xocalı azərbaycanlıların soyqırımı: "Yeri gəlmişkən, Xocalı buradan cəmi bir neçə kilometr məsafədədir. Münaqişənsonrası dövr də mənəvi və iqtisadi baxımdan az ağır deyildi. Bizim bir milyona yaxın insanımız var idi ki, onlar yaşamaq imkanlarından məhrum olmuşdular. Onlardan 700 min nəfəri Qarabağ regionundan idi, 250 min nəfəri isə Ermənistandakı azərbaycanlılar idi ki, oradan deportasiya olunmuşdular. O zaman bizim ölkəmizin əhalisi 8 milyon idi. Yəni bu, adambaşına düşən qaçqınların sayı baxımından ən yüksək göstəricilərdən biri idi.

Pul yox idi, xəzinə boş idi, bizi demək olar ki, heç kim dəstəkləmirdi. Heç kimdən heç bir əhəmiyyətli beynəlxalq dəstəyimiz yox idi, iqtisadiyyat dağılmışdı, inflyasiya min faiz idi, kütləvi işsizlik, yoxsulluq isə demək olar ki, 100 faiz səviyyəsində idi. Bax, belə bir Azərbaycan var idi. Həmin vaxt Heydər Əliyev hakimiyyətə gəldi. Xalqımızın bəxti onda gətirdi ki, çətin bir zamanda ona müraciət etdi və o da bu ağır yükü öz üzərinə götürdü. Halbuki o, gənc deyildi, artıq 70 yaşı var idi, səhhəti o qədər də yaxşı deyildi, ağır xəstəlik keçirmişdi. Əmma məhz onun sayəsində vəziyyəti sabitləşdirmək mümkün oldu. Üstəlik, o vaxt vətəndaş müharibəsi də gedirdi. Biz tədricən ayağa qalxmağa, necə deyərlər, dirçəlməyə başladıq. Yalnız bir şeyi düşünürdük. Mən əminəm, vətəndaşlarımızın əksəriyyəti də mənim dediyimi bölüşür ki, işğal olunmuş torpaqlarımızı necə qaytarmağı fikirləşirdik".

Bəli, Azərbaycan işğala məruz qalmışdı və belə bir dövrdə dünyada ədalətin bərpası uğrunda "mübarizə apardığını" iddia edən, demokratik ənənələrə "sadiq olduğunu" bildirən, beynəlxalq hüququn prinsiplərini "ümdə vəzifə" saydığını söyləyən bir çox dövlətlər Azərbaycan - Ermənistan məsələsinə, bizim işğala məruz qalmamıza spektik yanaşırdı. Hətta bəzi məqamlarda Qarabağın işğalının unutdurulması istiqamətində gizli işlər aparılırdı. İşğala məruz qalanla işğalı törədən arasında "bərabərlik" işarəsi qoyurdular - bəzi hallarda, işğalçını açıq şəkildə dəstəkləyirdilər. Xüsusilə, həmin dövrdə danışıqlar prosesində vasitəçilik missiyasını üzərinə götürən ATƏT-in Minsk qrupunun səyləri daha çox vəziyyəti dondurmağa, işğal faktını uzatmağa köklənmişdi. Prezident İlham Əliyev çıxışında bildirib ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin hər biri şəxsi səbəblərə görə Ermənistanın tərəfində idi və hər biri bu vəziyyətin əbədi davam etməsinə çalışırdı. "Ona görə də bu status-kvo dəyişmirdi. Hətta bəzən inanılmaz diplomatik səylərlə həmsədr ölkələr adından hansısa bəyanatla çıxış

### Bizə mesaj verdilər ki, əslində, bu vəziyyət qəbuledilənir

etməyə müvəffəq olanda, bir müddət sonra bu, təkzib edilirdi. Xatırlayıram ki, ABŞ, Fransa və Rusiya prezidentləri səviyyəsində status-kvonun qəbuledilməz olduğu bəyan ediləndə biz bunu böyük həvəslə qarşılamışdıq. Bu, ciddi bəyanat idi, buna nail olmaq üçün çox çalışmışdıq. Amma bir müddət sonra həmin bəyanatda cəmi bir söz dəyişdirildi - "qəbuledilməz" əvəzinə "dayanıqsız" dedilər. Yəni, bizə mesaj verdilər ki, əslində, bu vəziyyət qəbuledilənir. Yəni, maskalar açıldı, bəli, qəbuledilənir. Bu, Ermənistan üçün qəbuledilən idi, Minsk qrupunun həmsədrləri və bir sıra ölkələr üçün də qəbuledilən idi. Təkcə bizim üçün qəbuledilməz idi", - deyə dövlət başçısı bildirib.

Ölkə Prezidenti bildirib ki, 17 il ərzində çoxlu təkliflər, çoxlu görüşlər oldu, - bəlkə də heç də faydalı olmayan, - və çoxlu mesajlar alırdıq ki, reallıqla barışmaq lazımdır: "Reallıq budur, siz bununla barışmalısınız". Mən deyirdim ki, xeyr. Bu, dünya güclərinə bir çağırış kimi qəbul olunurdu, qeyri-adekvat reaksiya kimi dəyərləndirilirdi. Əsas narrativ isə bu idi - görürsünüz, onlar razılaşmır, onlara separatçılara şərti müstəqillik verilməsi müqabilində nəsə təklif olunur, amma onlar razılaşmırlar".

### Biz qərar verdik ki...

Azərbaycan işğal faktı ilə heç vaxt barışmadı. Ölkəmiz xoş məram nümayiş etdirərək aparılan sülh danışıqlarında daim konstruktivlik göstərirdi. Paralel şəkildə, Silahlı Qüvvələrimizin döyüş hazırlığının yüksəldilməsi, Ordunun maddi-texniki təchizatının gücləndirilməsi, peşəkar kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılırdı. Prezident İlham Əliyev həmişə qətiyyətlə bildirirdi ki, Azərbaycan xalqı işğal faktı ilə heç vaxt razı olmayacaq, münaqişə sülh yolu ilə həllini tapmasa, hərb yolu seçiləcək. Nəhayət, 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsinin başlaması zərurətə çevrildi. Düşmənin keçmiş təmas xətti boyunca təxribatları səngimirdi, əksinə getdikcə daha intensiv hal alırdı. Aydın görünürdü ki, Ermənistan yeni torpaqları ələ keçirmək istəyir. Düşmən cəzalandırılmalı idi və Azərbaycan Ordusu bunu layiqincə etdi. Düşmən ordusu cəmi 44 gün ərzində bütün döyüş qabiliyyətini itirdi. Prezident İlham Əliyev bildirib ki, biz qərar verdik ki, yeni reallıqlar yaradacağıq və siz onlarla barışmalı olacaqsınız: "Elə də oldu. Biz yeni reallıqları 2020-ci ildə 44 gün ərzində yaratmağa başladıq. Onlar bununla barışmağa məcbur oldular. Daha sonra 2023-cü ilin sentyabrında bir gün ərzində. Bununla da barışmağa məcbur oldular.

Amma əvvəl dediyimə qayıdıram: heç vaxt təslim olmamaq və heç vaxt ərazi bütövlüyünün pozulması ilə barışmamaq".

Azərbaycan xalqının işğalla barışmaması və bunu sona yetirməsi faktını əsaslandıran ən mühüm amillərdən biri də xalqın öz Liderinə inamı idi. Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərlə görüşlərində daima bir fikri, bir tezisi təkrarlayırdı - biz, o torpaqlara qayıdacağıq, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa olunacaq. Və belə də oldu... Prezident çıxışında onu da vurğulayıb ki, ədalətə inamım demək olar ki, itmişdi, keçmiş köçkün vətəndaşlarımız kimi. Onlarla daim görüşür və deyirdim ki, "inanın, biz qayıdacağıq". Amma hər il onların gözlərində inamın azaldığını görürdüm. Axı, gözlər hər şeyi deyir: "Onlar mənə deyə bilərlər ki, bəli, inanırıq, amma gözlər hər şeyi deyir. Mənim də inamım az idi, ədalətə inamım. Amma bizim Qələbəmiz, - bu, ədalətli və tam qələbədir, - göstərdi ki, ədalət var, sadəcə, ona nail olmaq lazımdır. Bu ədaləti əldə etmək üçün hər gün işləmək, hər gün qələbəyə yaxınlaşmaq lazımdır. Əgər son qərar səndən asılıdırsa, həyatını bu işə həsr etməlisən. Yalnız bu halda bu, baş verə bilər.

Əlbəttə, ən vacib amil cəmiyyətin həmrəyliyidir. Həmrəyliyin Prezident, Ali Baş Komandan olaraq mənə verdiyi mənəvi güc çox böyük idi. Əmin idim ki, xalq mənim arxamda dayanacaq. Bu da yəqin ki, həlledici amillərdən biri oldu. Odur ki, əvvəldə dediyimə qayıdıram - heç vaxt təslim olmamaq!"

### Heç vaxt işğalla barışmamaq - bu, əsas tövsiyədir...

Bu gün Azərbaycan qalib ölkədir - ərazi bütövlüyünü, suverenliyini bərpa etmiş qalib ölkə. Bəlkə də son illərdə, onilliklərdə belə bir presedent yaşanmamışdı - Azərbaycan bir ilkə imza atdı. İşğal faktı ilə barışmadı, torpaqlarının azadlığı uğrunda mübarizəyə qalxdı və buna nail oldu. Bu, günümüzdə yaşanan bir çox faktlar üçün də nümunə olmalıdır. Heç bir xalq, dövlət işğalla barışmamalı, bütövlüyünün bərpasının gününü gözləməli, səbrli olmalıdır. Prezident İlham Əliyev bildirib ki, bu əraziləri azad etmədən əvvəl mən 17 il Prezident olmuşam: "Əgər imkan yaranmasaydı, bəlkə də daha 17 il gözləyəcəkdik. Burada məsələ mənlik deyil. Hesab edirəm ki, bu da ukraynalılar üçün vacibdir. Məsələ şəxsiyyətdə deyil, məsələ ambisiyada deyil. Məsələ ondadır ki, bizdən əvvəl yaşamış nəsillər və bizdən sonra yaşayacaq nəsillər qarşısında məsuliyyət hiss etməliyik. Əgər bilsəydim ki, torpaqları geri qaytara bilməyəcəyik, biz bəlkə də daha 17 il gözləyəcəkdik, sonra yenə 17 il. O zaman artıq mən olmayacaqdım və bu, vacib olmayacaqdı. Mən mənəvi baxımdan hazır idim ki, bunu kimsə başqa biri edəcək. Amma başa düşürdüm ki, əgər mən etməsəm, yəqin ki, bunu heç kim edə bilməz. Bu, bəlkə də çox iddialı səslənə bilər, amma bu, sadəcə, mənim fikirləşdiyim idi və xatirələrimi bölüşürəm".

Bəli, bugünün rakursunda bir çox coğrafiyalarda baş verən hadisələr zamanı xalqlar və dövlətlər Azərbaycan nümunəsini göz önünə gətirməlidirlər. Biz dözdük, dayandıq və inkişaf etdik. İşğalla barışmadıq. Nəticədə isə istəyimizə nail olduq. Dövlət başçısı III Qlobal Şuşa Forumunda iştirak edən ukraynalı jurnalist Dmitro Qordonun sualını cavablandıran zaman bildirib: "Ölkəmiz haqqında dediyiniz xoş sözlərə, suverenliyin və ərazi bütövlüyünün bərpası üçün görülmüş işlərlə bağlı fikirlərinizə görə təşəkkür edirəm. Bir neçə il əvvəl tədbirlərin birində Ukrayna nümayəndəsinin oxşar sualına cavab vermək imkanım olmuşdu. İndi verdiyim cavab ozamankı cavabımdan fərqli olmayacaq və düşünürəm ki, bu, Ukrayna xalqının istəkləri ilə də səsləşir - heç vaxt işğalla barışmamaq. Bu, əsas tövsiyədir. Bizim etdiyimiz də bu idi. Daha doğrusu, biz bu prosesi belə görürdük".

***P.Sadayoğlu***

# Mərkəzi Bank uçot dərəcəsini azaltdı

**Mərkəzi Bankın (MB) İdarə Heyətinin qərarı ilə iyulun 24-dən etibarən uçot dərəcəsi 7 faiz, faiz dəhlizinin aşağı həddi 6 faiz, dəhlizin yuxarı həddi isə 8 faiz həddində müəyyənləşib. Uçot dərəcəsinin həddi əvvəlki 2 aylıq 7,25 bəndə nisbətən 0,25 faiz aşağı salınıb. Qərar ölkədəki mövcud inflyasiya hədəfləri dəhlizinə və gözləntilərə, eləcə də valyuta bazarında vəziyyətə əsasən qəbul edilib. Beləliklə, son qlobal iqtisadi proseslər, daxili makroiqtisadi vəziyyət, valyuta bazarında davam edən sabitlik, həmçinin pul siyasəti qərarlarının ötürücülüyü uçot siyasətində yumşalmanı labüdləşdirib.**



### Ölkəyə inflyasiya idxalı məhdudlaşıb

Qeyd edək ki, uçot dərəcəsi ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq təyin edilir. Əgər inflyasiya səviyyəsi yüksəlirsə, Mərkəzi Bank uçot dərəcəsini yüksəldir və əksinə, inflyasiya səviyyəsi endikcə, uçot dərəcəsi də endirilir. MB bildirir ki, inflyasiya proqnozlaşdırılan trayektoriya ilə hərəkət edir. Dünya əmtəə, xüsusilə də ərzaq qiymətlərinin davamlı azalması, beynəlxalq daşıma xərclərinin pandemiyadan əvvəlki səviyyəyə yaxınlaşması, ticarət tərəfdaşlarında həyata keçirilən sərt pul siyasəti və nominal effektiv məzənnənin bahalaşması inflyasiya idxalına azaldıcı təsir göstərib. Belə ki, qlobal iqtisadi aktivliyin zəifləməsi, eləcə də qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırıb. Təhlillərə əsasən, son aylarda xarici amillər üzrə qeyri-müəyyənliklər qalsa da, onların inflyasiyaya artırıcı təsiri əhəmiyyətli olmayıb. Beynəlxalq Valyuta Fondunun məlumatına görə, 2025-ci ilin iyununda əmtəə qiymətləri indeksi illik 0,6 faiz, o cümlədən ərzaq qiymətləri indeksi 4,2 faiz azalıb. Məhz bu amillər Azərbaycanı xarici inflyasiya təzyiqlərindən neytrallaşdırır və Mərkəzi Bankın arxayınçılığı da məhz budur. Ona görə də uçot dərəcəsinin növbəti azalmasına qərar verilib.

Aparılan dəyərləndirmələr göstərir ki, cari ilin ötən dövründə nağd və qeyri-nağd seqmentlər əhatə olunmaqla ümumilikdə valyuta bazarında təklif tələbi üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin azalmaqda davam etməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir. Valyuta bazarında tarazlığın fundamentində dayanan xarici sektor göstəriciləri əlverişli olaraq qalır. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2025-ci ilin 6 ayında da xarici ticarət balansında 1,4 milyard dollar məbləğində müsbət saldo qeydə alınıb. Mərkəzi Bankın 2025-ci və 2026-cı illərin yekunu üzrə tədiyə balansının cari hesabının profisitli olacağı ilə bağlı proqnozu dəyişməz qalır.

### Valyuta bazarında təklif tələbi üstələyib

Ötən dövr ərzində pul bazarında qısamüddətli faizlərdə də stabil dinamika müşahidə olunub. Təminatsız pul bazarında faizlər Mərkəzi Bankın faiz dəhlizi daxilində hərəkət edir. Maliyyə Nazirliyi tərəfindən vahid xəzinə hesabının sərbəst qalığının yerləşdirilməsi üzrə keçirilən depozit hərracları bank sektorunun likvidlik mövqeyinə artırıcı təsir göstərməkdə davam edir. Pul bazarında aktivlik yüksək olaraq qalır. 2025-ci ilin 6 ayında ötən ilin müvafiq dövrünə nəzərən təminatsız bazarda əqdlərin həcmi 26 faiz, sayı isə 55 faiz artıb.

Baza ssenarisinə əsasən, 2025-ci və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində olacağı proqnozlaşdırılır. Belə ki, baza ssenarisi üzrə iyul proqnozlarına görə, illik inflyasiyanın 2025-ci ildə 5,7 faiz, 2026-cı ildə isə 5,3 faiz olacağı gözlənilir. Cari ildə inflyasiya proqnozunun davamlı olaraq hədəfdə qalması və valyuta bazarında sabitliyin davam etməsi pul siyasətinin yumşaldılması üçün zəmin yaradır.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarlar faktiki və proqnozlaşdırılan inflyasiya, xarici və daxili risk amillərinin dinamikasından asılı olaraq veriləcək. Mərkəzi Bank bundan sonra da qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə etməyə davam edəcək.

### İnflyasiya ilə mübarizə tədbirləri davam etdiriləcək

Uçot dərəcəsi ilə bağlı növbəti qərarlar yenə də xarici və daxili amillərə uyğun olaraq müəyyənləşəcək. MB faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarı 2025-ci il sentyabr ayının 10-da açıqlayacaq. Qarşıdakı ay yarım ərzində uçot dərəcəsi xarici bazarlar, ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq müəyyənləşəcək. Xarici faktorlarda əsas rol oynayan mal və əmtəələrin, xüsusilə də qlobal ərzaq bahalaşması gözlənilmir. Doğrudur, geosiyasi amillər risk olaraq qalır, ancaq enerji daşıyıcılarının ucuzlaşması tendensiyası, sənaye və xammalların qiymətində sabitlik beynəlxalq qiymət bazarlarını təhdid etmir.

Daxili amillərə gəlincə, hökumət inflyasiya ilə mübarizə tədbirlərini 2024-cü ildə də prioritet kimi diqqətdə saxlayacağını bəyan edib və iqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumlar bu prosesə cəlb olunub. Qiymət bazarlarında ən önəmli nüanslardan biri olan süni qiymət artımlarının qarşısının alınması da yaddan çıxmamalıdır. Bu ssenariyə uyğun olaraq Mərkəzi Bank 2025-ci ilin ikinci yarısında da antiinflyasiya xarakterli pul siyasətini və inflyasiyaya təsir imkanlarını artırmaq istiqamətində tədbirlərini davam etdirəcək. Bütün bunlar inflyasiyanın birrəqəmli həddə saxlanılmaqla uçot siyasətində də yumşalmanın davam edəcəyini şərtləndirir.

***ELBRUS CƏFƏRLİ***

# Beynəlxalq tərəfdaşlıq inkişaf etdirilir

## Avropa İttifaqı Azərbaycanı etibarlı və ümum-Avropa qaz təchizatçısı adlandırır

Azərbaycanın xarici siyasət kursu çoxvektorluğu ilə seçilir və qarşılıqlı əməkdaşlığa, milli maraqlara əsaslanır. Ölkəmiz bütün beynəlxalq təşkilatlarla əlaqələrin inkişafında maraqlıdır. Hazırkı həssas məqamda Azərbaycan mühüm bir coğrafiyada münbit iqtisadi şərait formalaşdırması ilə diqqəti cəlb etməkdədir - ölkəmizin coğrafi-tranzit imkanlarını, Şərq-Qərb ötürücülük qabiliyyətini önə sürməsi, qlobal münasibətlərin yeni mərhələsini yaratması, mühüm enerji dialoqu platformasi formalaşdırması yüksək dəyərləndirilir. Xüsusilə, Avropa kontingenti artıq bölgənin



lideri olaraq Azərbaycana münasibətdə daha rasional münasibəti ilə seçilir - Azərbaycan dövləti mühüm toplantılarda, fundamental enerji dialoqlarında, yeni nizamın formalaşdırılması yönündə müzakirələrdə əsas dövlətlərdən biri kimi qəbul olunur.

**8-i Aİ üzvü olmaqla 10 Avropa ölkəsinə qaz ixrac edirik**

Avropanın hazırkı durumu, enerji tələbatının ödənilməsi yeni enerji təminatı məsələsini aktuallaşdırır - bu isə, Azərbaycanın önəmini daha qabarıq şəkildə ortaya çıxır. Geosiyasi reallıqlar fonunda Avropa İttifaqı məkanında enerji daşıyıcılarına tələbatın artması Cənub Qaz Dəhlizi ideyasını irəli sürən və bu layihənin əsas moderatoru qismində çıxış edən Azərbaycanın strateji baxışlarının uzaq məqsədlərə hesablandığını bütün cəhətləri ilə təsdiqləyir. Hazırda Azərbaycan Avropa üçün yeni enerji təhlükəsizliyi təminatçısı sayılır. 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması isə bu prosesdə xüsusi yerə malikdir. Qeyd edək ki, Avropa bazarında Azərbaycan qazına ehtiyac ildən-ilə daha da çoxalır - bu isə yeni idxalçı ölkələrin ortaya çıxmasını şərtləndirir. Digər tərəfdən, paralel olaraq Azərbaycanın ixrac potensialı da artmaqdadır. Bu mənada, bütövlükdə, Azərbaycanla Avropa İttifaqı arasında formalaşan enerji dialoqu əməkdaşlığın nadir formatı kimi səciyyələndirilir. III Qlobal Şuşa Forumunda çıxış edən Prezident İlham Əliyev bildirib ki, 2021-ci ildə biz energetika sahəsində strateji tərəfdaşlıq haqqında sənəd imzaladıq və o zaman biz ixracımızı 8 milyarddan 13 milyard kubmetrə qaldırdıq: "Bu gün 12 ölkəyə qaz ixrac edirik. Onların 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqının üzvüdür. Yəni, Avropa İttifaqı Azərbaycanı etibarlı və ümum-Avropa qaz təchizatçısı adlandırır. Coğrafi əhatə baxımından maye qaz deyil, boru kəməri ilə nəql olunan qaza gəldikdə Azərbaycan qlobal səviyyədə aparıcı ölkələrdən biridir. Mən bu yaxınlarda Xəzər neft sərgisində neft hasilatı ilə bağlı planlarımız haqqında danışdım və bəyan etdim ki, bizim planımız 2030-cu ilə qədər qaz hasilatını daha 8 milyard kubmetr artırmaqdır. Yəni, bu gün biz 25 milyard kubmetr ixrac ediriksə, o zaman üçün təqribən 33 milyard kubmetr təşkil edəcək".

Vurğulandığı kimi, Azərbaycan hər zaman Avropaya qaz ixracının həcmini artırmağa hazır olduğunu bildirir. Respublikamız olduqca geniş təsdiqlənmiş və proqnozlaşdırılan qaz ehtiyatlarına malikdir. Eyni zamanda, yeni yataqlar üzrə də kəşfiyyat işləri aparılıb və zəngin ehtiyatlar aşkarlanıb.

Aİ ilə Azərbaycan arasındakı enerji mübadiləsinin ən mühüm məqamlarından biri isə, yaşıl enerjidir. Yaşıl enerji də Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın yeni mərhələsi sayılır və tərəflərin strateji baxışlarını ifadə edir. Azərbaycan çox böyük yaşıl enerji potensialına malikdir. Bu, artıq təsdiq olunmuş faktdır. Əlamətdar haldır ki, xarici investorlar bu sahədə böyük layihələrə sərmayələr yönəldirlər. Azərbaycanda istehsal olunacaq yaşıl enerjinin isə Avropaya Qara dənizin dibi ilə çəkiləcək marşrutla ötürülməsi nəzərdə tutulur. Yaşıl enerji dəhlizinin yaradılması Azərbaycanla Aİ arasında enerji əməkdaşlığı imkanlarını daha da genişləndirəcək.

**Bizim enerji siyasətimiz biznes məqsədli olub, bunu heç vaxt siyasiləşdirməmişik...**

Azərbaycanın formalaşdırdığı əməkdaşlıq mühiti heç də rəqabətə deyil, əməkdaşlığa istinad edir. Ölkəmiz heç bir zaman hansısa başqa bir ölkənin alternativi olmaq fikrinə düşməyib - tam əksinə, tərəfdaşlıq əlaqələrinin şaxələndirilməsində maraqlı olub. Bu gün real olaraq Şərq ilə Qərbin qovşağında yerləşən Azərbaycan kontinental miqyasda iqtisadi-siyasi bağ kimi fərqli qütblər arasında inteqrasiyanı möhkəmləndirir. Aparılan siyasət isə açıq və şəffafdır - ölkəmiz milli maraqlar çərçivəsində yüksək iqtisadi dividendlərin əldə olunması üçün münbit zəmin yaradır. Təbii olaraq, Aİ də bu münbit zəmindən istifadə edərək yeni qlobal iqtisadi formasiyaya transfer olmaq niyyətindədir. Bəlkə də qəribə görünər - amma, Azərbaycanın iştirakı ilə yaranan yeni iqtisadi münasibətlər sistemi özünün mühüm ştrixləri ilə "köhnə qitə"nin də inkişafına yeni rəng qatacaq. Beləliklə, Azərbaycan ilə Aİ arasındakı əməkdaşlığın genişlənməsi üçün həm yeni imkanlar, həm də yeni müzakirə predmetləri mövcuddur. Bu əlaqələrin güclənməsi isə mühüm iqtisadi inkişafın aparıcı ünsürü kimi çıxış etməkdədir. Prezident İlham Əliyev bildirib ki, Avropa İttifaqı məsələsinə gəldikdə, onlar Rusiya qazından imtina etmək niyyətindədir, biz bunu heç vaxt nəzərə almamışıq. "Biz heç bir halda Rusiya ilə rəqabət aparmağa çalışmamışıq. Hətta o dövrdə ki, Rusiya Avropaya 150 milyard kubmetr qaz nəql edirdi. Biz heç vaxt deməmişik ki, buna alternativ ola bilərik. Biz sırf kommersiya prinsipləri əsasında fəaliyyət göstəririk. Bizim enerji siyasətimiz biznes məqsədli olub. Biz bunu heç vaxt siyasiləşdirməmişik, heç bir zaman qazın həcmini azaltmamışıq. Hətta o ölkələrə ki, onlar heç vaxt bizimlə razılaşmayıblar. Bu, sırf kommersiya prinsiplərinə əsaslanaraq öhdəliklərimizi rədd etdiyimiz mənasına gəlmir və heç bir ölkəyə qaz nəqlində indiyə qədər fasiləyə yol verməmişik. Budur, bizim məsələmiz belədir. Əlavə 8 milyard kubmetr üçün bazarlar müəyyən edilir. Biz Avropa İttifaqının üzvü olan bir neçə ölkədən təkliflər almışıq. O ölkələr ki, bəziləri artıq bizim qazımızı alır, digərləri isə hələ də Azərbaycan qazını almır. Biz bu təklifləri dəyərləndiririk. Bazara çıxış baxımından da biz bu məsələləri kommersiya prinsipləri əsasında dəyərləndiririk", - deyə dövlət başçısı vurğulayıb.

Beləliklə, Aİ ilə Azərbaycan arasındakı əlaqələr daha da möhkəmlənir - hər kəs anlayır və görür ki, Azərbaycan etibarlı tərəfdaşdır. Bu fakt Aİ-nin yeni rəhbər strukturlarının təmsilçilərinin ayrı-ayrı vaxtlarda Bakıya səfərləri zamanı da səsləndirilib - Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın Azərbaycan səfəri, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Kosta Koştanın Prezident İlham Əliyev ilə telefon danışığı, Ursula fon der Leyenin Antonio Koşta ilə birgə Prezident İlham Əliyevlə görüşdə iştirakı Aİ-nin Azərbaycana verdiyi əhəmiyyətin bariz nümunələridir.

***P.İSMAYILOV***

# Azərbaycan inam və etimad ünvanıdır

## Bakıda növbəti dəfə İsrail-Suriya danışıqları keçiriləcək

Azərbaycan hazırda regional miqyaslı, qlobal xarakterli əməkdaşlıq platformasının mərkəzi oyunçusu rolunu oynayır. Məhz bunun nəticəsində də dünyada Azərbaycanın dostları artmaqdadır. Bir çox ölkələr Azərbaycanı dost və etibarlı tərəfdaş hesab edir. Bu etimad sayəsində respublikamız bəzi ölkələr arasında yaranmış problemlərin həllində uğurlu vasitəçilik və ev sahibliyi edir. Bəzi xarici kütləvi informasiya vasitələrinin məlumatına görə, Azərbaycanda növbəti dəfə İsrail və Suriya nümayəndələrinin görüşü keçiriləcək. Xatırladaq ki, ilk belə görüş Suriyanın keçid dövrü prezidenti Əhməd əl-Şaraanın ölkəmizə səfəri zamanı baş tutmuşdu. Görüşün İsrailin milli təhlükəsizlik müşaviri Tsaxi Xaneqbi ilə Suriya xarici işlər naziri Əsaad əş-Şibani arasında keçirildiyi bildirilirdi.

**Tərəflər Əs-Süveydə probleminin həllinə çalışır**

Bu dəfə Səudiyyə Ərəbistanının "Əl-Hadas" telekanalı öz mənbələrinə istinadən xəbər verir ki, İsrail nümayəndə heyətinin Suriya tərəfi ilə razılaşmaları yekunlaşdırmaq məqsədilə Azərbaycana səfəri gözlənilir. "Al-Arabiya" nəşri isə ABŞ-ın vasitəçiliyi və Türkiyənin dəstəyi ilə İsrail və Suriya arasında təhlükəsizlik məsələləri üzrə əlaqə kanallarının bərpa olunduğunu bildirib. Məlumata görə, Türkiyə və Suriya kürd, druz və ələvilərin statusu, həmçinin İsrailin rolunu da əhatə edən regional qarşılıqlı anlaşma barədə danışıqlar aparır. Nəşr həmçinin bildirir ki, İsrail nümayəndə heyəti Əs-Süveydə ətrafında mübahisəni tam həll etmək üçün Azərbaycana səfər edəcək. Bununla yanaşı, nəşr yazır ki, İsrail Suriyaya hücumları dayandırmaq öhdəliyini üzərinə götürməyib və 1974-cü ildə müəyyən edilmiş atəşkəs xətti boyunca təxminən 80 kilometr uzunluğunda və yarım kilometrdən 10 kilometrə qədər dərinlikdə geniş demilitarizasiya olunmuş bufer zonasının yaradılmasında israr edir.

**Bakının uğurlu vasitəçilik təcrübəsi...**

Göründüyü kimi, Azərbaycan növbəti dəfə beynəlxalq ictimaiyyət üçün etimad ünvanıdır. İndiyə kimi ölkəmiz dəfələrlə bu tipli görüşlərə ev sahibliyi edib. Məsələn, İsrail ilə Türkiyə arasında yaranmış problemin həllində ölkəmiz vasitəçilik edib. Bu ilin aprel ayında belə bir görüş baş tutub. Nəzərə alaq ki, hər iki ölkə Azərbaycanın dostudur. Ona görə də, Bakı hər iki tərəf üçün ən uyğun məkandır. Digər tərəfdən, dövlətimiz öz dostlarının arasında hansısa gərginliyin olmasını istəmir. Ona görə də barışdırıcı siyasət həyata keçirir. Azərbaycan hələ 2010-cu ildə də İsrail ilə Türkiyə arasında yaranmış gərginliyin aradan qalxmasında vasitəçilik edib və bu vasitəçilik kifayət qədər uğurlu olub.

Xatırladaq ki, Azərbaycan hələ 2008-ci ildə Rusiya ilə Gürcüstan arasında baş verən gərginliyin aradan qaldırılmasında da fəal vasitəçi rolunu oynamışdı. Bundan əlavə, ölkəmiz fərqli siyasi-hərbi qütblər arasında dialoqun baş tutması üçün ən uyğun məkanlardan biri kimi özünü təsdiqləyib. Belə ki, Azərbaycanın paytaxtı Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin görüşlər keçirməsi ölkəmizin strateji dialoq platformasi kimi çıxış etdiyini göstərir. Ölkəmiz 2017-2020-ci illərdə NATO-Rusiya və ABŞ-Rusiya arasında yüksək vəzifəli hərbçilərin 7 görüşünə ev sahibliyi edib. Belə mötəbər görüşlərin keçirilməsi üçün Azərbaycanın seçilməsi beynəlxalq səviyyədə ölkəmizə olan böyük inamın ifadəsidir.

Bütün bunların fonunda İsrail və Suriya nümayəndələrinin ölkəmizdə keçiriləcək növbəti görüşü də iki ölkə arasında gərginliyin aradan qaldırılmasına töhfə verə bilər. Məlumdur ki, İsrail Azərbaycana yaxın dost və tərəfdaş ölkələrindən biridir. Azərbaycan və İsrail xalqları arasında dostluq əlaqələrinin qədim tarixi var. Bu xalqlar həmişə bir-birinin dilinə, dininə, mədəniyyətinə dərin hörmətlə, ehtiramla yanaşıblar. Bu gün Azərbaycan və İsrail arasında dostluq və əməkdaşlıq strateji əhəmiyyət kəsb edir. 44 günlük Vətən müharibəsində İsrail Azərbaycanın ədalətli mövqeyini dəstəklədi. Ölkələrimiz arasında hərbi sahədə də yaxşı əlaqələr var. İki dövlətin dostluq



və əməkdaşlığı yüksələn xətlə inkişaf edir.

**Azərbaycan Yaxın Şərqdə sabitliyə töhfə verir**

Eləcə də, ölkəmizin Suriyanın yeni hökuməti ilə fəal əlaqələri qurulur. Suriyanın keçid dövrü Prezidenti Əhməd əl-Şaraanın bu yaxınlarda ölkəmizə səfəri Azərbaycanın Yaxın Şərq regionunda əlaqələrinin daha da genişlənməsində sülhə və dialoqa, eyni zamanda, Suriyada bərpa və quruculuq işinə töhfə verməsində mühüm əhəmiyyət kəsb edir. Suriyada sabitliyin və sülhün qorunub saxlanılmasında Azərbaycan strateji tərəfdaşımız olan Türkiyə ilə koordinasiyalı şəkildə hərəkət edir. Enerji təhlükəsizliyi və qaz anlaşması baxımından Azərbaycan və Suriya liderləri arasında aparılan danışıqlar təkcə iki ölkənin maraqları baxımından deyil, ümumilikdə region üçün yeni perspektivlər vəd edir.

Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığı kimi, bu gün bu missiyanı Yaxın Şərq regionunda da davam etdirməkdə əzmindədir. Əlbəttə, burada təkcə enerji resursları deyil, eyni zamanda, Azərbaycanın həyata keçirdiyi uğurlu diplomatiya, öz strateji tərəfdaşları ilə birgə hərəkət etməsi əsas amillərdən hesab oluna bilər. Bu, Azərbaycanın həm regional, həm də qlobal miqyasda etibarlı tərəfdaş kimi tanındığını nümayiş etdirir. Beləliklə, Azərbaycan Avropa və Mərkəzi Asiya regionunda olduğu kimi, Yaxın Şərq bölgəsinə də fəal aktor kimi daxil olur, uzun müddət müharibə və dağıntılarla üzləşmiş Suriyanın yenidən qurulması və bərpasında, enerji təminatında, humanitar yardımların verilməsində fəal iştirak edir.

Bütün bunlar onu göstərir ki, Azərbaycan dövlətinin diplomatiyası ölkəmizin strateji maraqlar kəsb edən regionlarda sülh, inkişaf və dialoq təşviq edir. Bu baxımdan, İsrail-Suriya danışıqlarının Bakıda keçirilməsi böyük əhəmiyyət daşıyır.

***Nardar BAYRAMLI***

# Hidayət: 21 yaşımda “Sovet Ermənistanı” qəzetinin ədəbi işçisi olmuşam

## Yazıçı Hidayətin APA-ya müsahibəsini təqdim edirik



**- Hidayət müəllim, bu yaxında Akademik Musiqili Teatrının səhnəsində sizin “İrəvanda xal qalmadı” əsəriniz əsasında hazırlanmış tamaşaya baxdım. Tamaşada Ermənistanda yaşayan Sultan Oğuz adlı yazıçı SSRİ Yazıçılar İttifaqı tərəfindən dövlət mükafatına təqdim edilir. Ermənilər də bunun qarşısını almaq üçün məkrli planlar qururlar. Belə hadisə həqiqətən olub, yoxsa təxəyyül məhsuludur?**

- Əvvəla onu deyim ki, müsahibəmiz Milli Mətbuatımızın 150 illiyinin astanasında baş tutur. İmkandan yararlanaraq bütün jurnalistlərimizi təbrik edirəm. Onu da demək istəyirəm ki, xüsusilə sənin kimi jurnalistlərlə görüşəndə öz gəncliyimi xatırlayıram. Mən respublika səviyyəsində işə jurnalist fəaliyyəti ilə başlamışam, 21 yaşımda “Sovet Ermənistanı” qəzetinin ədəbi işçisi olmuşam.

**- Çox sağ olun, təşəkkür edirəm.**

- Dediyin suala gəldikdə isə ona oxşar bir yazıçı olub və bu hadisə baş verib.

**- Çünki siz Qərbi Azərbaycanda doğulmuş, uzun müddət orada yaşayıb fəaliyyət göstərmisiniz. Məncə, burda avtobioqrafik çalar da olmamış deyil.**

- Şübhəsiz. Mən sizə “Burdan min atlı keçdi” kitabımı bağışlayacam. O kitab 1984-cü ildə, mən İrəvandan köçəndən dərhal sonra yazılmağa başlayıb. O vaxt sovet senzurası bu əsəri ciddi ixtisarlarla çap eləmək istədi. Mən razılaşmadım. Hətta əsərin o şəkildə çapından imtina etdim. Sonra mənim təkidimlə “Azərbaycan” jurnalında jurnal variantı çıxdı. Əlbəttə, Qlavlitin - senzuranın çək-çevirindən sonra əsər çox şey itirsə də, qalan hissələr çap olundu. Düzü, mən əvvəl əsərin jurnalda da ixtisarla çapına da qarşı idim. Bir axşam Yusif Səmədoğlu zəng edib söylədi ki, “Burdan min atlı keçdi”nin ixtisarla jurnalda çap olunması belə hadisə olacaq. Onun sözüylə razılaşdım. Amma bir şərtlə: Göstərilsin ki, jurnal variantıdır. Əsər jurnal formatında 1986-cı ildə dərc edildi. Düzdür, sərt yerlərin çoxu çıxarılmışdı, amma qalan hissə də Azərbaycan oxucusu üçün yeni, maraqlı idi. O əsərdə mən çox məsələləri danışmışam. Sergey Yeseninin tərcümeyi-hal yazmasını istəyəndə o, qısa bir şey qaralayır. “Niyə belə az?” deyə soruşanda da cavab verir ki, tərcümeyi-halımın qalan hissəsi şeirlərimdədir. Mənim həm İrəvan dövrünü, həm də sonrakı illəri əhatə edən həyatım bu kitabda toplanıb. Bu kitabda Qərbi Azərbaycanda xalqımızın sinə gərdiyi problemlər öz əksini tapıb: Azərbaycan toponimlərinin dəyişməsindən tutmuş 1948-ci ilin - mən ona “könüllü repressiya” deyirəm - son dövrlərin deportasiyasına qədər hər şey yazılıb.

**Həmin vaxt bizim evdə ən qorxulu söz “köç” söz idi**

**- 1948-ci il deportasiyası zamanı 4 yaşınız vardı. Yadınıza gəlir?**

- 1947-ci ildə atamla Qüdrət qağam - ailəmizdə böyük qardaşa qağa deyirik - ikimərtəbəli ev tikməyə başladılar. Həmin vaxta kimi bizim Mığrı, ermənilərin Meğri dediyi rayonda cəmi iki səydə ikimərtəbəli bina vardı. Biri Rayon Partiya Komitəsinin inzibati binası, o biri birinci katibin evi idi. Bir də kiçik Maralzəmi kəndində bizim ev idi. İkinci mərtəbənin artırılması 1951-1952-ci illərdə baş tutdu. Həmin vaxt bizim evdə ən qorxulu söz “köç” söz idi. Hər il başa çatanda anam təbəssümlə deyərdi ki, Allah, sənə çox şükür, bu il də bizi köçürmədilər. Yəni o illər narahatlıq, insanların mənəvi repressiyaya uğradığı dövr idi.

**- Yaşamaq şövqü ilə böyük ev tikirsiniz və tikdiyiniz dudmanın sizə qalmayacağından qorxursunuz.**

- Bəli, doğrudur. Yəni deməyim odur ki, bu proses mənim uşaqlığımda baş verib. Təəssüf ki, mənim uşaqlığım o dövrdən başlayır. Anam deyərdi ki, sovet hökumətinin bayrağı bir az aşağı düşən kimi ermənilərin yumruğu başımızın üstünü alır. Əvvəllər mən uşaq idim, bunu anlamırdım. Mən bunu 1988-89-cu illərdə gördüm. Qorbaçovun yenidənqurmasından sonra - mən onu həmin illərdə mətbuatda “yenidənqırma” adlandırmışam - ermənilər yenidən baş qaldırdılar və bizi sonuncu dəfə Qərbi Azərbaycandan deportasiya etdilər. Amma unutdular ki, Dəmir Yumruq öz sözünü deyəcək. Üstündən 30 il keçsə də, Dəmir Yumruq öz işini gördü. Anam ilk deportasiyanın - 1918-ci ilin dəhşətlərini yaşamışdı. Onda 13 yaşındaymış. Sonra 1988-ci il, yenə dəhşətli qaçqınlıq müsibəti. Son iki yüz ildə Azərbaycan tarixində 44 günlük müharibədən böyük hadisə yoxdur. Son iki yüz ildə Azərbaycan itirə-itirə gəlib. İndi o regionların adını çəkmək istəmirəm. Hər halda qonşu dövlətlər var. Mənim sözümü təkcə yazıçı fikri kimi yox, həm də dövlət xadiminin bəyanatı kimi qəbul edəcəklər.

**“Neftçi” qalib gələndə bütün azərbaycanlıların, “Ararat” qalib gələndə bütün ermənilərin milli bayramı olurdu**

**- Deyirsiniz, ananız evdə belə söhbətlər danışırdı və bir Azərbaycan icması kimi daim bu qorxuları yaşayırdınız. Bəs bayırda ermənilərlə münasibət necə idi?**

- Ermənilərin bizə qarşı azı təftişçilik münasibətini daim hiss edirdik. Mən uşaqlıqda, sonralar “Sovet Ermənistanı” qəzetində və teatrda işləyəndə bunları apaydın görmüşəm. Bizim rayonda Zəngəzurun digər bölgələrinə - Vedibasara, Zəngibasara, Hamamlıya, Göyçənin özünə nisbətən erməni millətçiliyi kəskin hiss olunmurdu. Münasibətlərin hədsiz gərginliyi “Neftçi” ilə “Ararat”ın oyununda açıq-aydın görünürdü. Onların oyunlarının nəticələri münasibətlərə çox mənfi təsir göstərirdi.

**- “Neftçi” qalib gələndə nələr olurdu?**

- Ooo, “Neftçi” qalib gələndə bütün azərbaycanlıların, “Ararat” qalib gələndə bütün ermənilərin milli bayramı olurdu.

**- Bu oyunlar zamanı bildiyimiz qədəri ilə insident də yaşanırdı.**

- Şübhəsiz. Elə o insidentlərin birinə mən özüm də düşmüşəm. İrəvanda “Neftçi” ilə “Ararat”ın əvəzedici heyətləri oynayırdı. Mən teatrın 3-4 əməkdaşı ilə oyuna baxmağa getmişdim. Aramızda teatrın iki erməni əməkdaşı da vardı...

**- Onlar da sizinlə getmişdilər?**

- Bəli. Orda bir insident yaşandı. Sadəcə, mən onun böyüməsinə imkan vermədim. Mənim respublika rəhbərliyi, erməni ictimaiyyəti içində teatr direktoru, yazıçı kimi nüfuzum ermənilərin hiyləsinin baş tutmasına imkan vermədi.

**- Ətraflı danışa bilərsiniz?**

- Bilirsiniz, o ayrıca müsahibənin mövzusudur. Qısaca deyim ki, ermənilər bizlə bağlı şikayət elədilər. Milis də onların tərəfini tutdu. Sonra biz milisi də ifşa elədik və mənim bir daha deyirəm, amma təvazökarlıqdan uzaq olmasın, nüfuzum sayəsində məsələni bağladıq.

**- Deməli, Zeynəb Xanlarovanın oxuduğu “Qardaş olub Azərbaycan-Hayastan” mahnısı yalnız kosmetik bəzək imiş. Dərinlərdə bizimlə ermənilər arasında heç vaxt gerçək barışıq olmayıb.**

- Yox, sən deyən kimi bunlar hamısı kosmetik bəzək idi. Ermənilər tərəfindən bizə sevgi, xoş münasibət olmayıb. Özü də ermənilərin içindən kimsə normal söz deyəndə də ona qarşı çıxırdılar. Mən orda adamlar tanıyırdım ki, 1915-ci il hadisələri barədə danışanda deyirdilər: “Üstündən bu qədər müddət keçib, keçmişə yox, gələcəyə baxmaq lazımdır”. Həmin adamlar da təqib edilir, işdən çıxarılır, mətbuatda tənqid olunurdular.

**- 1965-ci ildə Ermənistanda 1915-ci il hadisələrinin 50 illiyi qeyd olunmuşdu?**

- Bəli, qeyd olunmuşdu. Hətta buna görə Moskvadan icazə də alınmışdı. İrəvanın Opera və Balet Teatrında qondarma soyqırımı ilə bağlı tədbir keçirildi. Respublikanın yüksək rəhbərliyi gəlmişdi. Bir az sonra ekstremistlər binaya hücum elədilər. Bəlkə də bu, əvvəldən hazırlanmış ssenari idi. Mərkəzi Komitənin büro üzvləri qorxularından binanı tərk elədilər. Mən o vaxt Mığrı rayonunda idim. Amma bu hadisəni dəqiq bilirəm. Teatrın binasında başlayan təxribatlar, intizamsızlıq bütün şəhərə yayıldı. Ertəsi gün yenə şəhərdə aksiyalar keçirildi. Etirazçılar hava limanına üz tutdular, oranı elə keçirmək istəyirdilər. Onda artıq Sovet ordusu işə qarışdı, onların qabağını kəsdi. Bir az sonra mitinqlər səngidi.

**- Həmin hadisələr zamanı azərbaycanlılara qarşı hücumlar baş vermişdi?**

- İrəvanla yanaşı, azərbaycanlıların az yaşadıqları rayonlarda da böyük gərginlik yaşandı. İnsanlar çölə çıxmağa qorxurdular ki, azğınlaşmış kütlənin hücumuna məruz qalmasınlar. Hadisələrin ildönümünə yaxın, 1966-cı ilin mart ayında Mərkəzi Komitənin birinci və ikinci katiblərini dəyişdilər. Qatı millətçiliyi ilə seçilən Hovanes Bağdasaryanı ikinci katib vəzifəsindən çıxarsalar da çölə atmadılar, mədəniyyət naziri təyin etdilər. O, qısa müddət mədəniyyət naziri işləyəndən sonra Ali Sovetin Rəyasət Heyəti sədrinin birinci müavini vəzifəsinə qoydular. Halbuki nə Rusiyada, nə də Sovetlər Birliyinin digər ölkələrində parlamentdə sədrin birinci müavini postu var idi. Yalnız o qatı millətçi erməniyə görə bu vəzifəni yaratdılar. O da vəzifədə olduğu illərdə Qərbi Azərbaycanda mövcud olan yüzlərlə toponimlərimizi, adlarımızı dəyişib erməniləşdirdi.

**Ermənilər həmişə Moskvada bir söz deyirdilər, Bakıda başqa cür, İrəvanda tamam ayrı cür danışırdılar**

**- Qərbi Azərbaycanda bu qədər azərbaycanlı yaşayırdı. Onlar nə əcəb buna etiraz etmirdilər?**

- Etiraz edirdilər, ciddi etiraz edirdilər.

**- Sizin dayınız Əli Məmmədov da Sovet Ermənistanında daim yüksək vəzifələrdə olub. O da etiraz edə bilərdi.**

- Dayımın Ali Sovetdə son vəzifəsi Sovetlər Şöbəsinin müdirinin müavini olub. Əvvəllər Vedibasarda rayon Partiya komitəsinin birinci katibi, Amasiya ilə Qukasyan bir rayon olanda İcraiyyə komitəsinin sədri olmuşdu, Ermənistan Ali Sovetinə deputat seçilmişdi. O, Ali Sovetin partiya iclasında çıxış edir. Həmin ərəfədə Moskvada partiyanın 21-ci qurultayı keçirilirdi. Orda Koçinyan (Anton Koçinyan - SSRİ partiya xadimi, Ermənistan KP MK-nın birinci katibi - M.A.) çıxış edib xalqlar dostluğundan danışmışdı. Həmin vaxt dayım sərt çıxış edib deyir ki, Koçinyan Moskvada dostluqdan danışır, amma burada 24 apreldə ermənilər küçələrə çıxıb Naxçıvanla Qarabağı istəyirlər. Bunu necə başa düşək? Çıxış Ali Sovetin Rəyasət Heyətinin sədrinin xoşuna gəlmir, o dayımın sözün iki dəfə kəsir. Dayımın çıxışı lap yuxarı dairələrə çatdırılır. Sadəcə bilirsiniz necədir, ermənilər həmişə Moskvada bir söz deyirdilər, Bakıda başqa cür, İrəvanda tamam ayrı cür danışırdılar. Onlar əsas qayələrindən heç vaxt əl çəkmirdilər. Dayımın çıxışından bir müddət sonra İrəvanda yaradıcılıq təşkilatlarının plenumu keçirilirdi. Orda mənə də söz verdilər. Mən ədəbiyyat məsələlərindən, Yazıçılar İttifaqının fəaliyyətindən danışdım.

**- Ermənistan Yazıçılar İttifaqının fəaliyyətindən?**

- Bəli. Mən Yazıçılar İttifaqının İdarə Heyətinin üzvü, eyni zamanda, Azərbaycan Ədəbiyyatı Şurasının sədriydim, o xətlə çox böyük işlər görülürdü. Çıxışda dedim ki, Ermənistan tərkibinə görə SSRİ-də ən milli respublika olsa da, Yazıçılar İttifaqında Azərbaycan Ədəbiyyatı Şurası, Rus Ədəbiyyatı Şurası, Kürd Ədəbiyyatı Şurası böyük işlər görür. Həqiqətdə də o cür idi.

**- Siz Azərbaycan ədiblərinin Ermənistanda tanınması istiqamətində böyük işlər görmüsünüz.**

- Mən əvvələ Qərbi Azərbaycanda yaşayan yazıçılarımızın tanıdılması istiqamətində işlər görürdüm. Onların hamısının kitablarını çap edirdim.

**- Erməni dilində?**

- Yox, Azərbaycan dilində. Əlbəttə, mənim erməni dilində də kitabımı çap edirdilər. Amma başqa yazıçıların əsərlərini Ermənistanda Azərbaycan dilində çap edirdim, üstəlik, erməni mətbuatında da erməni dilində də verirdim. Bundan başqa hər il “Ədəbi Ermənistan” məcmuəsini çap edirdik. O məndən də qabaq çap olunub, sonra arada fasilə vermişdilər. “Nəyim var?” adlı ilk şeirim də mən məktəbdə oxuyanda orda çap olunub. İlk bəndi yadımdadır:

*Nəyim var soruşdu bir qoca əyyaş*
*Sualdan titrədi bütün varlığım*
*Düşündüm bu rişxənd olmayaydı kaş*
*Dedim ki, şeirdir bəxtiyarlığım.*

**- Neçə yaşında yazmışınız?**

- Səkkizdə-doqquzda oxuyardım.

**- İlk qələm təcrübəsi kimi kifayət qədər iddialı şeirdir.**

- (Gülür) hə, çox iddialı idi. Nədənsə o şeiri kitablarıma salmadım. Hə, biz orda Nəsimidən başlayaraq Səməd Vurğun, Nəbi Xəzri, İsa İsmayılzadə, Anar, Elçin və başqa Azərbaycan yazıçılarını çap edirdik.

**- Əkrəmi çap etmişdiniz?**

- Əkrəmi yox, çap etməmişdik.

**- Əkrəmin erməni dilində çap olunmamağı da ironik mənzərədir.**

- Hə, amma Bəxtiyar Vahabzadəni çap etmişdik. Mən hələ qəzetdə işlədiyim vaxt əsli Goranboydan olan Alek Xaçunts adlı erməni şairi var idi. Azərbaycan dilini bilirdi. Ona nəşriyyatda müasir Azərbaycan şairlərindən birinin kitabını tərcümə etməyi məsləhət görmüşdülər. O məndən soruşanda fikirləşmədən dedim Bəxtiyar Vahabzadəni çevir. Xahiş elədi, Bəxtiyarın kitablarını bağışladım. Həvəslə tərcümə edir, anlamadığı sözləri məndən soruşdu. Kitab hazır olub nəşriyyata getdi, nəşriyyat millətçilik damğası ilə kitabı çap etmədi. Bundan bir müddət sonra Alek Xaçunts başıalovlu yanıma gəlib dedi ki, Bəxtiyar Vahabzadənin adından bir şeir yazmışam. “Uca zirvələrdən uçan durnalar” - birinci misrası belə idi. Guya Bəxtiyar Vahabzadə Ermənistana aid şeir yazıb. İnsafən şeirdə milli, siyasi, Ermənistanı öyən heç nə yox idi, ancaq təbiətlə bağlı idi. Məndən də xahiş elədi ki, onu Azərbaycan dilinə tərcümə edim. Aparıb nəşriyyatda göstərsin.

**- Sən erməninin fərasətinə bax!**

- Hə. Mən o şeiri tərcümə etdim. Amma bununla belə mən nəşriyyatın direktoru və baş redaktoru ilə danışdım, kitabı çap elədilər. Çünki oralarda kimsə demişdi ki, Bəxtiyar Vahabzadə siyasətçi, millətçi şairdir. Alek o şeirin tərcüməsini Bəxtiyar müəllimə göndərmişdi, oxumuşdu, xoşuna gəlmişdi, demişdi Azərbaycan dilində çıxan kitabına salacağam. Sonra şairin ikinci kitabını - bu dəfə iri həcmdə - erməni dilində nəşr etdik.

Yaradıcılıq təşkilatlarının birləşmiş plenumundakı çıxışımla bağlı sözlərim yarımçıq qaldı. Bayaq adını çəkdiyim Hovanes Bağdasaryan da yaradıcılıq təşkilatlarının tədbirlərində iştirak edirdi. Halbuki onun mədəniyyətlə əlaqəsi yox idi. Yaradıcılıq təşkilatlarının plenumu hara, Ali Sovetin Rəyasət Heyətinin sədrinin birinci müavini hara? Tənəffüsdə mənə yaxınlaşıb dedi ki, siz niyə orda belə çıxış edirdiniz? O mənim eyhamımı başa düşmüşdü ki, Ermənistan ən milli respublikadır, buradan Qərbi azərbaycanlılar qovulub. Hovanes həmin söhbətdə dayımın çıxışını xatırladıb dedi ki, sən burda, Əli Sultan oğlu da orda danışır. Dedim, mən bilmirəm dayım orda nə danışıb, mən ədəbiyyat söhbəti eləmişəm. Halbuki dayım həmin sərt çıxışından sonra axşam məni evinə çağırmışdı, söhbətdən xəbərim vardı. Məndən başqa Səfər Vəliyəvov, Hüseyn Məmmədov da o kəskin çıxış barədə eşidib dayımgilə gəlmişdilər. Onlar da Ermənistanda vəzifədə idilər. Hüseyn Məmmədov Gülçöhrə xanımın (Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, memar Gülçöhrə Məmmədova - M.A.) atasıdır.

**Mən İrəvana gedəndə ilk dəfə baş çəkdiyim yerlərdən biri Göy məscid idi**

**- Siz nə əcəb o vaxtı Bakıda işləmədiniz, İrəvanda yaşamağı seçdiniz? Belə deyək, bu prosesi 18 il gecikdirdiniz?**

- Bilirsən, mənim “Burdan min atlı keçdi” əsərim elə məhz 1966-cı ilin 14 mart gecəsi ilə başlayır. “Zəngəzur” qatarı ilə Mığrıdan İrəvana getməyimi unuda bilmirəm. Mən Bakıya gələ bilərdim. Erməni təhdidlərindən-təqiblərindən uzaqda daha rahat yaşaya bilərdim. Daha çox kitabım çap olunardı, daha çox qonorar qazanardım. Daha yüksək vəzifələrdə olardım. Amma mən həmin gecə İrəvana gedirdim və məndə belə bir romantik arzu formalaşmışdı ki, Qərbi azərbaycanlıların 1948-ci il deportasiyasından qabaqkı kultunu bərpa edəcəm. Mən 18 il orda yaşadım və bu istiqamətdə bacardığım, mümkün olan hər şeyi etdim.

**- Siz İrəvanda yaşadığınız dövrdə orada hələ Azərbaycan ab-havası qalmışdı?**

- Düzdür, qalmışdı, amma xeyli də məhdudlaşmışdı. Ermənilər 1918-ci ilə qədərki ən böyük İrəvan məscidini İrəvanın tarixi muzeyi eləmişdilər.

**- Göy məscidi?**

- Bəli.

**- Məscid kimi fəaliyyət göstərmirdi?**

- Yox. Amma onun zahirini nə qədər dəyişsələr də, baxanda hiss olunurdu ki, erməni memarlığı deyil. Məscidin elementləri hiss olunurdu. Mən İrəvana gedəndə ilk dəfə baş çəkdiyim yerlərdən biri Göy məscid idi.

**- Ora məscid olduğu üçün getmişdiniz, yoxsa tarixi abidə kimi?**

- Yox, məscid, inanc yerini ziyarət etmək üçün getmişdim. Həm də istəyirdim gedim görüm ermənilər bizim inanc yerimizi nə günə qoyublar.

**- Bildiyim qədəri ilə İrəvanda çoxlu məscid olub.**

- Hə, düzdür, olub, amma mən İrəvanda olduğum dövrdə yalnız bir məscid saxlamışdılar. Axundov adına məktəbin arxasında yerləşən balaca məscid idi. Digər məscidləri, milli abidələri dağıtmışdılar.

**- Camaat o məscidə gedirdi?**

- Əlbəttə. Bəzi cənazələr məhz o məsciddən götürülürdü.

**- Mən bir çox qərbi azərbaycanlı ilə söhbət zamanı görmüşəm ki, sovet dövründə, ermənilərin içində yaşamaqlarına baxmayaraq, inanclı, dinə bağlı olublar.**

- İrəvanda da məscid fəaliyyət göstərirdi, regionlarda da məscid vardı. Mənim doğulduğum Mığrı rayonunda məscidlərin hamısını hələ 1918-1919-cu illərdə məhv etmişdilər. Amma din qalırdı, inanc qalırdı. Sən seyidsən də?

**- Bəli.**

- Bizim rayonda hörmətli, nüfuzlu seyidlər vardı. Maralzəmi balaca kənd idi. 25-30 ailə yaşayırdı. Kəndimizin arasından dərə keçirdi, dərənin o tayı Seyidlər məhəlləsi adlanırdı. O seyidlərdən bəzilərini mən görmüşəm. Orda Mirəfsər ağa adlı seyid olub. Bizim kənddə 50-55-ci illərdən ikimərtəbəli daş evlər tikilməyə başlayıb. Camaat gedib uzaq-uzaq yerlərdən, çaylaqlardan, yarğanlardan daş gətirirdi. Mirəfsər ağanın da evi uçmuşdu, daşları dağılmışdı, heç kəs də yaşamırdı, bir adam onun daşlarını daşımırdı. Qaçqınlığa qədər də heç kəs gedib o daşlara əl vurmadı. Bir hadisəni də danışım. Qağam müharibədə olanda anam Mirəfsər ağanın yanına gedir. Onun oğlu da müharibədə imiş. Anam Mirəfsər ağadan soruşur ki, Qüdrətin taleyi necə olacaq? O da kitab açır, nəsə oxuyur. Deyir öz oğlu qayıtmayacaq, amma Qüdrət qayıdacaq. Anam da nişan üzüyünü Mirəfsər ağaya nəzir deyir. Qağam müharibədən qayıdandan sonra anam Mirəfsər ağanın qapısına gedib üzüyü nəzir verir, götürmək istəmirmiş ki, Qüdrətin toyunda gəlinə verərsən. Təəssüf ki, seyidin oğlu həqiqətən müharibədən qayıtmır. Hə, bizdə Mirəfsər ağa kimi seyidlər çox idilər.

**- Siz özünüz belə şeylərə inanırdınız?**

- Bilirsiniz, elə həqiqətlər var ki, onun səbəbi izah olunmur.

**- Hidayət müəllim, bir sual verəcəm, inciməyin. 23 yaşında bir gəncin birdənbirə teatra direktor təyin olunmağı mənə qəribə gəlir. Bu təyinatda nə əcəb dayımızın rolu olmayıb?**

- (Gülür) mənim təyinatım çıxan vaxtı dayım ailəsi ilə birgə Kislovodskda dincəlirdi. Əvvəla mən “Sovet Ermənistanı” qəzetinə işləməyə gedəndə 21 yaşım vardı, ən cavan əməkdaş idim. Hələ Azərbaycan Dövlət Universitetinin qiyabi şöbəsinin tələbəsi idim. Həmin vaxt İrəvan Teatrının 50 yaşlarında direktoru teatrın 17 yaşlı aktrisası ilə evləndi. Bütün teatrı onun əlinə verdi. Teatr biabırçı vəziyyətə düşdü.

**- Teatrın direktoru azərbaycanlı idi?**

- Direktor azərbaycanlı olmağına azərbaycanlı idi, qızınsa anası erməni olsa da, azərbaycanlı kimi gedirdi. O direktor teatrı məhv etmişdi, dedi-qodu, dava-şava, intriqabazlıq baş alıb gedirdi. Teatr açılanda İncəsənət İnstitutunun bütöv bir qrupunu İrəvana göndərmişdilər. Belə şeylərə görə, o qrupun əksəriyyəti oradan aralanmalı olmuşdu. Ona görə Mədəniyyət Nazirliyində məsləhət olur ki, “Sovet Ermənistanı” qəzetinin redaktoruna müraciət etsinlər. Redaktor mədəniyyət nazirinə nümunəvi əməkdaş kimi məni məsləhət görür. Amma onu da deyir ki, bizim bir divarımız odur. 23 yaşım təzəcə tamam olmuşdu. Mənim bədhaqlarım deyirdilər ki, Hidayətin pioner baş dəstə rəhbəri olmaq vaxtıdır, amma o boyda teatra direktor qoydular, görəsən orda neçə həftə dözəcək?

**Dayım deyir ki, bacım oğlunu direktor qoymusunuz, mən həmin vaxt İrəvanda olsaydım, razılaşmayacaqdım**

**- Yəqin oradakı azərbaycanlılar da sizin direktor təyin olunmağınıza etiraz edirmişlər.**

- Elə əsasən azərbaycanlılar mənim direktor təyin olunmağıma etiraz edirdilər. Məni mədəniyyət naziri qəbul elədi. Əmrimi verdilər. Teatr elə vəziyyətdə idi ki, mənim təqdim edilməyim zamanı nazir teatra gəlmədi, kollektivi nazirliyə çağırdı. Mən iyun ayında təyin edildim, oktyabr ayında məni Mərkəzi Komitəyə vəzifəmi təsdiqləməyə çağırdılar. Orada adım çəkiləndə ayağa durdum, anketim oxundu. Birinci katib mədəniyyət nazirindən soruşdu ki, necə işləyir? O da cavab verdi ki, qısa müddətdə teatrda böyük işlər görüb.

**- İstər-istəməz adamın ürəyinə fikir gəlir ki, adamı olmasa 23 yaşında birini teatra direktor qoymazlar.**

- Dedim axı, dayım həmin proseslər zamanı ailəsi ilə Kislovodskda dincəlirdi. Mən də həmin vaxtı dayıma zəng edib məsləhətləşmədim. Bu barədə “Burdan min atlı keçdi”də yazmışam. Dayım qayıdandan sonra direktor təyin olmağımı eşidib çox narahat oldu ki, məni birdən dolaşdırarlar. Sözləri də yadımdadır: “Orda müxtəlif maliyyə məsələləri var, dekorasiyalar və sair... Sən onlardan necə baş çıxaracaqsan?” Bir müddət sonra dayımla o dövrkü mədəniyyət naziri Moskvada görüşürlər. Dayım ona deyir ki, bacım oğlunu direktor qoymusunuz, mən həmin vaxt İrəvanda olsaydım, razılaşmayacaqdım. O da “yaxşı oğlandır” deyə-deyə məni tərifləyirmiş.

**- Özünüz necə qohum-əqrəbaya dəstək olmusunuz?**

- Belə şeyləri demək təbiətimə yaddır, amma həmişə mənə müraciət edən hər kəsə qohum oldu, tanış oldu, ya qeyri-tanış oldu, fərqi yoxdur, yardımçı olmağa çalışmışam. Mən adətən etdiyim yaxşılıqlar haqqında deyil, edə bilmədiklərim haqqında danışıram.

davamı növbəti sayımızda

# Dünyanın gözlədiyi atəşkəs və regionda sülh...

## Rusiya-Ukrayna arasında növbəti danışıqlar yenə də İstanbulda baş tutub

*N.BAYRAMLI*

Türkiyə növbəti dəfə Ukrayna ilə Rusiya arasındakı danışıqlara ev sahibliyi edib. Belə ki, iyulun 23-də İstanbul şəhərində tərəflər arasında danışıqların üçüncü raundu baş tutub. Görüşdən əvvəl Ukrayna Prezidenti Volodimir Zelenski beynəlxalq tərəfdaşlarla, eləcə də Rusiya nümayəndələri ilə danışıqlar prosesində iştirak edən nümayəndə heyətinin tərkibini təsdiqləyib. Dövlət başçısı Rusiya ilə danışıqlarda iştirak edən Ukrayna nümayəndə heyətinin tərkibini 12 nəfərdən 14 nəfərə qədər artırıb. Ukrayna nümayəndə heyətinə Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov, Rusiya təmsilçilərinə isə Prezidentin köməkçisi Vladimir Medinski başçılıq edib. Görüşdən əvvəl V.Zelenski yeni əsir mübadiləsinə hazırlıq getdiyini, görüşün gündəliyinin və Ukrayna üçün əsas mövzuların razılaşdırıldığını bildirmişdi.




**Son 5 ayda 3-cü görüş**

Xatırladaq ki, Ukrayna və Rusiya son beş ay ərzində İstanbulda iki tur danışıq keçirib. İyunun 2-də keçirilən ikinci görüşdə isə əsir mübadiləsi mövzusunda mühüm razılaşmaya nail olunmuşdu. Bu dəfə də Zelenski danışıqlar ərəfəsində nümayəndə heyəti ilə görüşərək onları təlimatlandırıb. R.Umerov Rusiya tərəfi ilə İstanbulda keçirilən ikinci görüşün razılaşmalarının yerinə yetirilməsi haqqında məlumat verib. Prezident Aparatının rəhbəri Andrey Yermak isə dövlət başçısını Avropa və Birləşmiş Ştatlardakı tərəfdaşlarla diplomatik işin koordinasiyası barədə məlumatlandırıb. Prezident Zelenski vurğulayıb ki, Ukrayna əsirlərin azad edilməsi, oğurlanmış uşaqların geri qaytarılması, eləcə də qətllərin dayandırılması və liderlərin görüşü ilə bağlı işləməyə hazırdır: "Bizim mövqeyimiz maksimum şəffafdır. Ukrayna heç vaxt bu müharibəni istəmədi və Rusiya özünün başladığı müharibəni dayandırmalıdır".

**Rusiya nikbin deyil**

Rəsmi Moskva isə hesab edir ki, Rusiya və Ukraynanın bir-birinə təqdim etdiyi sülh nizamlanması haqqında memorandum layihələri iki ölkə arasında birbaşa danışıqların üçüncü raundunun əsas mövzusu olmalıdır. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov görüş öncəsi bildirmişdi ki, danışıqların mövzusu kifayət qədər mürəkkəbdir: "Digər məsələlərlə yanaşı, ikinci raund zamanı mübadilə edilmiş həmin memorandum layihələri də müzakirə olunmalıdır". Onun sözlərinə görə, Rusiya İstanbul danışıqlarından irəliləyişlər gözləmir: "Ukrayna memorandumu mövzusu o qədər mürəkkəbdir ki, həlak olanların meyitlərinin qaytarılması və ya mübadilələr barədə razılaşmaların əldə edilməsi artıq bir nəticədir. Hər hansı bir irəliləyiş gözləmək üçün heç bir əsas yoxdur. İndiki vəziyyətdə bunun mümkün olması ehtimalı azdır".

Bütün bunların fonunda Türkiyə Rusiya və Ukrayna arasındakı danışıqların 3-cü raundunun nəticələrinin konstruktiv olacağını və dialoqun davam edəcəyini gözləyir. Türkiyə Prezidentinin administrasiyası "Prezidentin (Ərdoğan - red.) sülh prosesində uduzan tərəf olmayacağı ilə bağlı bəyanatını xatırlatmaq istərdik. Biz nəyə ümid edirik? Atəşkəsə və regionda sülhə... Bütün dünya bunu gözləyir", -deyə bəyan edib.

**Moskva Kiyevə təzyiqləri artırır**

Bütövlükdə, görüşün detalları ilə bağlı geniş məlumat verilməsə də, qarşılıqlı olaraq əsir və həlak olanların cəsədlərinin mübadiləsi üçüncü görüşün də nəticələrindən biridir. Rusiyanın israr etdiyi memorandumu isə hər iki tərəfi qane etdiyi halda imzalamaq mümkündür. Nəzərə alaq ki, bu görüş Rusiyanın Ukraynaya qarşı şiddətli hücumlarının davam etdiyi şəraitdə keçirilib. Moskva Kiyevə qarşı bu hücumlarla onu güzəştə getməyə məcbur etmək istəyir. Amma Kiyev Qərb tərəfdaşlarının dəstəyi ilə qarşı tərəfə müqavimətini davam etdirə bilir.

Nəzərə alaq ki, İstanbul görüşü hər nə qədər nəticəsiz olsa da, "təmas qurmamaqdan yaxşıdır" prinsipini reallaşdırır. Diplomatiyada hər bir təmas, xüsusən silahlar danışdığı bir mühitdə potensial dönüş nöqtəsi ola bilər. Tərəflərin belə görüşlərdə humanitar məsələlərdə, əsir mübadiləsində və ya müəyyən texniki razılaşmalarda irəliləyişə nail ola bilməsi də, müəyyən qədər irəliləyiş hesab olunmalıdır.

**Niyə məhz Türkiyə?**

Digər vacib məqam isə görüş üçün məkan olaraq yenə də Türkiyənin seçilməsidir. Məlumdur ki, müharibə başlayandan rəsmi Ankara sülh təşəbbüsləri ilə çıxış edir. Hələ 2022-ci ildə müharibə yeni başlayanda Antalya Diplomatiya Forumu çərçivəsində Rusiya və Ukrayna xarici işlər nazirlərinin görüşü keçirilmişdi. Eyni zamanda, Rusiya və Ukrayna nümayəndə heyətlərinin İstanbulda keçirdiyi görüş sülh prosesinə müsbət təkan vermişdi. Rusiyanın Kiyev və Çerniqovda hərbi əməliyyatlarını əhəmiyyətli dərəcədə azaltmaq qərarı həqiqətən də mühüm addım idi və bu, İstanbul görüşünün nəticəsində baş verdi. Eləcə də, "taxıl sazişi" də məhz Ankaranın vasitəçiliyi ilə reallaşmışdı. Türkiyə müharibədən əziyyət çəkən insanlara humanitar yardım göstərir, eləcə də onun vasitəçiliyi ilə münaqişə zonalarında dinc əhali üçün humanitar dəhlizlər açılıb.

Türkiyənin bu yöndə təşəbbüsləri müharibə aparan ölkələr tərəfindən də təqdir olunur. Rəsmi Ankara bölgədə sabitliyin təmin olunması üçün müntəzəm olaraq həm Kreml, həm də Kiyevlə təmasdadır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hər iki ölkənin lideri ilə danışıqlar aparır. Türkiyə böyük dövlətdir və bölgədə baş verən proseslərə təsir imkanları var. Son illər Türkiyə regional güc kimi özünü təsdiq edib. Yaxın Şərq böhranı ilə bağlı rəsmi Ankaranın oynadığı rol beynəlxalq birliyə çox yaxşı məlumdur. Hazırda isə Rusiya-Ukrayna müharibəsinin bitməsi üçün Türkiyənin böyük fəallığı göz önündədir. Bütün bunların nəticəsidir ki, münaqişə tərəfləri danışıqlar üçün məhz bu ölkəni seçir. Bu baxımdan, danışıqların növbəti raundunun İstanbulda keçirilməsi mühüm amildir.

# Yaponiyada hakim partiyaya zərbə...

## Baş nazir istefa verəcək?



Yaxın zamanda Yaponiya hökumətində ciddi dəyişiklik baş verə bilər. Belə ki, ölkənin "Kyodo" agentliyinin məlumatına görə, Yaponiyanın Baş naziri Şiqeru İşibanın avqustun sonunda öz vəzifəsindən istefası gözlənilir. Agentliyin məlumatında da qeyd olunur ki, bazar günü parlamentin yuxarı palatasına keçirilən seçkilərdə Ş.İşibanın Liberal Demokrat Partiyası (LDP) və onun koalisiya tərəfdaşı Komeito qələbə çalsa da, palatadakı bir çox yerləri itirib. Ölkənin müasir tarixində bu, ilk belə siyasi hadisədir. Yuxarı palatada koalisiya indi 248 yerin yarısından azına nəzarət edir, bu da hökumətin qanun qəbul etmək imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Müxalif partiyalar - Konstitusiya Demokratiya Partiyası və Xalqın Demokratiya Partiyasının parlamentdəki yerlərinin sayı artıb. Tez-tez ifrat sağçı kimi xarakterizə edilən Sanseito partiyası isə təmsilçiliyini 2 yerdən 14-ə yüksəldib. Qeyd edək ki, bu, İşiba üçün ardıcıl ikinci böyük seçki məğlubiyyətidir - ötən ilin payızında hakim koalisiya parlamentin aşağı palatasında da yerlərin əksəriyyətini itirmişdi. Baş nazir İşiba hökumətin gələcəyi ilə bağlı jurnalistlərin suallarını cavablandırarkən bildirib ki, ABŞ ilə ticarət müqaviləsinin təfərrüatlarını hərtərəfli nəzərdən keçirməyincə, bu barədə heç bir şərh verməyəcək.

**İşiba təkzib edib**

Yaponiyada bir sıra ekspertlər KİV-lərə açıqlamalarında bildiriblər ki, Vaşinqtonla danışıqların davam etdiyi bir zamanda Şiqeru İşiba öz vəzifəsindən istefa verməyəcək. Onların iddialarına görə, İşiba ABŞ-la tam razılaşma əldə etdikdən sonra istefa vermək qərarına gələ bilər. Yaponiya KİV-lərinin məlumatında qeyd olunur ki, hazırda İşiba ciddi təzyiqlərlə üz-üzə qalıb. Xüsusilə "Mayniçi" qəzeti qeyd edir ki, İşiba artıq öz ətrafına avqustun sonuna qədər istefa vermək planları barədə məlumat verib. "Kyodo" agentliyi LDP-nin yüksək vəzifəli funksionerlərinə istinadən bildirib ki, İşibanın istefası qaçılmazdır. "Yomiuri" qəzeti isə İşibanın artıq iyulda istefa verə biləcəyini bildirib.

KİV-lər, həmçinin qeyd edirlər ki, İşiba öz istefa məsələsini keçmiş hökumət başçıları - Yoşihide Suqa, Fumio Kişida və Taro Aso ilə görüşündə müzakirə edib. Lakin Yaponiyanın Baş naziri KİV-lərin sözügedən məsələ ilə bağlı məlumatlarını təkzib edib - o, jurnalistlərə açıqlamasında bildirib ki, onun hələ ki, istefa verməklə bağlı planı yoxdur: "Keçmiş baş nazirlər Yoşihide Suqa, Fumio Kişida və Taro Aso ilə görüşdə mənim qalıb-qalmamağım və ya istefa verməyim barədə söhbət olmayıb. Bəzi KİV-lər bu barədə məlumat yayıb, lakin mən heç vaxt belə bəyanatlar verməmişəm. Bu məlumatlar həqiqətə uyğun deyil", - deyə Baş nazir bildirib.

**ABŞ-la mühüm anlaşma**

Yaxın zamanda ABŞ ilə Yaponiya arasında iki ölkənin iqtisadi-ticari münasibətlərinin daha da inkişaf etdirilməsinə dair mühüm saziş imzalana bilər. Artıq ABŞ Prezidenti Donald Tramp öz sosial şəbəkə hesabında bu barədə status paylaşıb. Ağ Evin rəhbəri bildirib ki, yeni müqavilə həm ABŞ-a, həm də Yaponiyaya böyük iqtisadi imkanlar qazandıracaq. "Biz Yaponiya ilə razılığa gəldik. Bu anlaşma bizə minlərlə yeni iş yeri yaratmağa imkan verəcək" - deyə Tramp qeyd edib. Prezident, həmçinin xatırladıb ki, Yaponiya ABŞ-a 550 milyard dollar sərmayə qoymağa da razılıq verib.

Müqaviləyə əsasən, ABŞ-a ixrac olunacaq yapon avtomobilləri və digər məhsullar üçün tariflər 25 faizdən 15 faizə endiriləcək. Eyni zamanda Yaponiya öz bazarlarını ABŞ avtomobilləri, yük maşınları, sənaye və kənd təsərrüfatı xarakterli məhsullar üçün açacaq.

***Yunis ABDULLAYEV***

# Makron + Bayru = 37

Dövlət siyasətinin prioritet hədəfləri müəyyənləşdirilərkən ölkənin potensialı və reallıqları nəzərə alınmadıqda, bu, çox ciddi fəsadlarla sonuclanır. Bunu son illərdə Fransanın üzləşdiyi çətinliklər bir daha əyani şəkildə təsdiqləyir. Emmanuel Makron 2017-ci ildə ilk dəfə Fransa prezidenti seçildikdə ölkədə sağ və sol qüvvələr arasında həmrəyliyə nail olacağının, Avrozonanın ikinci ən böyük iqtisadiyyatını vergi güzəştləri və islahatlar yolu ilə modern səviyyəyə yüksəldəcəyinin, daxildə və beynəlxalq miqyasda Yelisey Sarayının siyasi nüfuzunu artıracağının anonsunu etmişdi. Lakin aradan 8 il vaxt ötməsinə rəğmən, bunların heç biri baş verməyib. Belə ki, sonrakı illərdə yaşanan böhranlar, COVID-19 pandemiyası dövründə milli iqtisadiyyatın dayanıqlıq nümayiş etdirməməsi, sürətlə artan inflyasiya ölkə boyunca etirazların permanent hal almasını şərtləndirdi. O cümlədən baş verənlər fonunda Yelisey Sarayı üçün adekvat siyasi böhran qaçılmaz oldu.

**Ən zəif prezident - baş nazir tandemi**

Makronun zamanında populist vədlər verməsinin kədərli sonluğu Fransa cəmiyyətində prezidentə və onun komandasına inam, sarsılmasında özünü daha qabarıq şəkildə göstərir. Bu gün iş o yerə çatıb ki, ölkədə prezident - baş nazir (Makron - Bayru) V respublika tarixində ən qeyri-populyar, ən az bəyənilən liderlər tandemi kimi dəyərləndirilir. Bunun bağlı IFOP institutunun "Journal du Dimanche" qəzeti üçün apardığı sorğunun nəticələrində məlumat verilir. Bu dəyərləndirmə reallığı əks etdirir və hakim komandanın iflası anlamına gəlir.

Sorğunun nəticələrinə görə, Makron cəmi 19 faiz, baş nazir Fransua Bayru isə 18 faiz ictimai dəstəyə malikdir. Beləliklə, onların birlikdə qazandığı ümumi razılıq səviyyəsi 37 faizi keçmir. Bu göstəricilər Fransa cəmiyyətində icra hakimiyyətinə münasibətdə dərin narazılıq və ümumi məyusluğun bariz ifadəsidir.

Hətta Fransua Holland və Manuel Valls dövründə belə xalq arasında bu qədər aşağı dəstək qeydə alınmayıb. Həmin vaxtda Valls 38 faiz dəstəyə sahib idi və bu, ümumi razılıq səviyyəsini 51 faizə çatdırırdı. İndiki rəqəmlər isə V Respublika tarixində ən zəif hökumət dəstəyi kimi qiymətləndirilir.



Aprel ayında Donald Trampın gömrük rüsumlarına dair açıqlamalarından sonra Makronun reytinqi 28 faiz səviyyəsində idi. Lakin son sorğuda onun populyarlığı ilk dəfə olaraq 20 faizdən aşağı düşüb. Halbuki Makron "sarı jiletlilər" böhranı zamanı belə 23 faiz, Barnier hökumətinin parlamentdəki məğlubiyyətində isə 21 faiz dəstək səviyyəsini qoruması bacarmışdı. Son göstəricilər isə onun hazırkı mövqeyinin əvvəlki siyasi sarsıntılara nisbətən daha zəif olduğunu göstərir.

Makronu 2022-ci ildə dəstəkləmiş seçicilər arasında da narazılıq artır. Hazırda onların cəmi 49 faizi prezidentin fəaliyyətindən razıdır - bu da 12 faiz azalması göstərir. Seçicilərindən əlavə, Makrona dəstəyin menecerlər arasında 8 bənd, iş adamları arasında isə 18 bənd azalması qeydə alınıb. Sorğu, həmçinin göstərir ki, Fransua Bayru V Respublika tarixində ən qeyri-populyar baş nazir hesab olunur.

**Hökumət böhranının davamı**

Əslində, prezident - baş nazir tandeminin populyarlığının bu səviyyədə aşağı düşməsi ölkədə ötənilki seçkilərdən sonra başlayan hökumət böhranının davamıdır. Məlumdur ki, 2024-cü ilin iyul ayının birinci ongünlüyündə Fransada parlamentin aşağı palatasına növbədənkənar seçkilərin ikinci turu başa çatdıqdan sonra ölkədə hökumət böhranı qaçılmaz oldu. Sonradan aylarla uzanan hökumət böhranı ilk növbədə Makronun manipulyasiyalarından qaynaqlanırdı. Seçkilərin ikinci turunun nəticələrinə görə, parlamentdə solçular 182, Makronun mərkəzçi alyansı 168, ifrat sağçıları təmsil edən Mari Le Penin "Milli birlik" partiyası və onun müttəfiqləri isə 143 yer qazanıblar. Qeyd edək ki, Fransa Milli Assambleyası 577 deputatdan təşkil olunur. Parlamentdə çoxluğu əldə etmək istəyən partiyaya 289 mandat kifayət edir.

Makronu əndişələndirən də elə rəhbərlik etdiyi mərkəzçi koalisiyanın parlament çoxluğunu qazana bilməməsi idi. Belə olanda Makron komandasını xilas etməkdən ötrü hökuməti bir neçə cəhddən sonra konstitusiyanı pozmaqla formalaşdırdı. Beləliklə, Mərkəzçi "Demokratik Hərəkat" Partiyasının lideri Fransua Bayru ötən ilin dekabr ayında sırf Makronun iradəsi ilə baş nazir postuna gətirildi ki, bu da elə ilk gündən uğursuz təyinat kimi dəyərləndirildi. Vurğulamaq yerinə düşər ki, Fransa siyasətinin yaşı 70-i ötən veteranları sırasında yer alan Fransua Bayru ölkə tarixində ən aşağı reytinqlə Matinyon sarayında işə başlayan baş nazirdir. Ölkə vətəndaşlarının yalnız 34 faizi onun təyinatını və yeni statusunda ilk addımlarını bəyənib. Tədqiqatçılar qeyd edirlər ki, Bayrunun sələfləri nəzərəçarpacaq dərəcədə yüksək bəyənmə reytinqləri ilə işə başlamışlar. Beləliklə, onun sələfi Mişel Barnier hökumətin başındakı səlahiyyət müddətinə görə antirekorda imza atıb. O, işin ilk ayında həmvətənlərinin 45 faizinin dəstəyini qazanıb. Ondan əvvəlki hökumət rəhbərləri Qabriel Attal və Elizabet Born müvafiq olaraq 54 və 57 faiz müsbət reytinqə malik olublar.

**Reallıqdan uzaq gözləntilər**

Baş nazir postunda hələ bir il tamam olmayan Bayrunun Fransada Pasxa və 8 May tətil günlərini ləğv etməsinin cəmiyyətdə hakimiyyətin icra qolunun nüfuzuna ciddi təsir göstərdiyi bildirilsə də, burada əsas səbəb başqadır. Yeni baş nazir reallıqdan uzaq gözləntilər sərgiləməklə ölkənin kritik həddə çatan büdcə kəsirini sərt qənaət rejiminə keçməklə azaltmaq planlarını bəyan edib ki, bu da ölkədə birmənalı qarşılanmayıb. İnsanlar Makron dönəmində verilən əvvəlki qərarlara istinad etməklə sərt qənaət rejiminə keçidin onların həyatını daha da ağırlaşdıracağını düşünürlər və buna görə də icra strukturlarına etimadsızlıq göstərməyi çıxış yolu kimi görürlər.

Baş nazirin yüksək inflyasiya, artan işsizlik və dövlət borcunun rekord səviyyəyə çatması fonunda "ədalətli və məsuliyyətli büdcə" kimi ümumi və qeyri-müəyyən fikirləri sadəcə populist ritorika kimi qəbul edilir. Bayru iddia edir ki, büdcə həm qənaətcil olmalı, həm də sosial xidmətlərə investisiyanı artırmalıdır. Amma bu iki məqsədi eyni anda həyata keçirmək, xüsusilə indiki böhran şəraitində, demək olar ki, mümkünsüzdür. Ən narahatedici məqam isə Bayru hökumətinin siyasi zəifliyini və parlamentdə əksəriyyətin olmamasını nəzərə almaması və ciddi təhlil aparmamasıdır. Aydın şəkildə başa düşülür ki, Bayrunun kompromis və dialoq çağırışları artıq reallıqla adekvat deyil. Buna görə də cəmiyyətin geniş təbəqələri narazıdır, etirazlar artır. Belə bir şəraitdə Makronun komandasının "birlik və anlayışa" çağırışı heç bir halda batan gəmini xilas edə bilməz.

***Mübariz FEYİZLİ***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Əks-hücum əməliyyatımız...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması" istiqaməti üzrə hazırlanmışdır**

Azərbaycan İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın mülki əhalisi arasında itkiləri minimuma endirmək üçün əlindən gələni etmişdi. Müharibə zamanı dəfələrlə bildirmişdik ki, ordumuzun Ermənistan ərazisində və mülki əhali arasında heç bir hədəfi olmayıb. 44 gün ərzində bütün dünya da şahid oldu ki, Azərbaycan heç bir halda mülki əhalini hədəf götürmədi və yalnız hərbi obyektlərə atəş zərbələri endirmişdi.

Məlumdur ki, ordumuz yalnız özünə aid olan əraziləri erməni silahlılarından təmizləmək üçün əks-hücum əməliyyatları həyata keçirmişdi. Azərbaycanın sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək ümumilikdə 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Bu, dünyanın müasir hərb tarixində misli görünməmiş uğurlu hərbi əməliyyat idi. Ermənistan ordusu demək olar ki, tamamilə məhv edildi.

**Oğullarımızın canı, qanı bahasına yazılan tarix!**

Mövzunu "Yeni Azərbaycan"a şərh edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, millət vəkili Elman Məmmədov bildirib ki, hərbçilərimizin şücaəti ilə 44 günlük savaşda qazanılan qələbə hər bir azərbaycanlı üçün son dərəcə əziz və qiymətlidir: "2020-ci il sentyabrın 27-də növbəti hərbi təxribat müharibə üçün qığılcım oldu. Atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri cəbhəboyu mövqelərimizə intensiv zərbələr endirməklə yanaşı, Tərtər, Ağdam, Füzuli rayonlarının yaşayış məntəqələrini qəsdən artilleriya atəşinə tutaraq Azərbaycana qarşı növbəti təcavüz törətdilər. Ali Baş Komandanın rəhbərliyi ilə işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlanıldı. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə rəşadət göstərən əsgər və zabitlərimiz, bütövlükdə xalqımız əzm və iradə, birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirdi.

Azərbaycan Ermənistanı kapitulyasiya aktına imza atmağa məcbur etdi, tariximizə yeni bir gün yazdı və şəhidlərimizin qisası alındı. 21-ci əsrin müharibəsini aparan Azərbaycan hərbi gücü, qüdrəti ilə dünyaya səs saldı. Vətən müharibəsində tarixi Zəfər heç də asanlıqla əldə olunmayıb. Torpaqlarımızı geri qaytarmaq fikrində olmayan Ermənistan onilliklər ərzində burada güclü istehkamlar qurmuşdu. Azərbaycanın cəsur oğullarının şücaəti ilə düşmənin bütün sədləri darmadağın edildi, Vətən müharibəsində tarixi Zəfər cəsur Azərbaycan oğullarının fədakarlığı, canı və qanı bahasına qazanıldı".

**Mülki şəxslərimiz də hədəf idi...**

E.Məmmədovun sözlərinə görə, Ermənistan silahlı qüvvələrinin üzvləri davamlı olaraq 1949-cü il tarixli Cenevrə konvensiyalarının tələblərini pozaraq azərbaycanlı mülki şəxslərə, hərbi qulluqçulara, xüsusilə də yaralılara və həlak olmuş şəxslərə qarşı işgəncə və insanlıq əleyhinə əməllərlə müşahidə olunan müharibə cinayətləri törədib: "Azərbaycandan fərqli olaraq, Ermənistan Vətən müharibəsi zamanı mülki əhalini hədəfə aldı və mülki insanlardan qalxan kimi istifadə etdi. Lakin Azərbaycan Ermənistanın mülki əhalisinin ərazidən çıxarılması üçün dəfələrlə şərait yaratdı, atəşi dayandırdı. Buna Hadrutun azad edilməsi zamanı qarşı tərəfin mülki əhalisinin və hərbçilərinin ərazidən çıxmasına şərait yaradılmasını nümunə göstərə bilərik. Şuşa azad olunana yaxın Xankəndiyə doğru kilometrlərlə uzanan avtomobil karvanlarını da misal göstərə bilərik. Halbuki həmin karvanların tərkibində mülki maşınlarla birlikdə hərbi maşınların və hərbçilərin də olduğu barədə Azərbaycan tərəfində kifayət qədər dəqiq məlumatlar var idi. Biz həmin karvanlara heç bir atəş zərbəsi endirmədik və bunun da başlıca səbəbi onun yaxınlığında mülki əhalinin olması idi".

**Bəzi ölkələr susur...**

Deputat qeyd edib ki, hələ də Ermənistanın müharibə cinayətlərinə bəzi ölkələr susur, baş verənlərə qeyri-ciddi yanaşırlar: "Bu da Azərbaycanın beynəlxalq müstəvidə daha çox mübarizə aparmasına səbəb olub. Cinayətlərin tam şəkildə araşdırılması və Ermənistanın cavabdeh tutulması üçün beynəlxalq səviyyədə daha çox tədbir görülməsi vacibdir".

***Sahib***

# Uşaq ədəbiyyatının banisi...

## Milli düşüncə tarixində Abdulla Şaiq fenomeni




Ədəbiyyatımızı, pedaqogika və ideoloji fikir tariximizi Şaiq imzası olmadan təsəvvür etmək çətindir. Onun Azərbaycan ədəbiyyatına verdiyi töhfələrin əhəmiyyətini dərk etmək üçün bir anlıq onun yoxluğunu düşünmək kifayətdir. Mübaliğəsiz demək olar ki, Abdulla Şaiq olmasaydı, Azərbaycan onun milli ruhda yetişdirdiyi ziyalı ordusundan məhrum olardı.

Abdulla Şaiq Azərbaycan uşaq ədəbiyyatının yaradıcılarından biri, milli uşaq teatrının banisidir. Uşaqlar üçün yazdığı "Xoruz", "Bənövşə", "Keçi", "Quzu", "Qızıl gül", "Qərənfil" və digər şeirləri, "Tülkü həccə gedir", "Tıq-tıq xanım" kimi pyesləri ədəbiyyatımızda hələ də xüsusi yerə malikdir. 1881-ci il fevralın 24-də Tiflisdə ruhani ailəsində dünyaya göz açan yazıçı ömrünün 34 ilini Azərbaycan təhsilinin inkişafına həsr etmişdi. Bu gün yazıçının vəfatından 66 il ötür.

A.Şaiq ilk təhsilini aldıqdan sonra 1893-cü ildə ailə vəziyyəti ilə əlaqədar olaraq Xorasana gələrək orada dövrünün mütərəqqi ziyalısı Yusif Ziyanın məktəbində təhsilini davam etdirir. On doqquz yaşlı Abdulla yeddi ildə Xorasanda mükəmməl təhsil alır, tarix, məntiq, psixologiya elmlərini, Şərq, Azərbaycan, rus ədəbiyyatını öyrənir. 1900-cü ildə o, Tiflisə qayıdaraq bir müddət orada qalır. 1901-ci ildə Bakıya gəlir. Görkəmli ictimai xadim Nəriman Nərimanov və Abbas bəy Minasazovun qayğısı və köməyi ilə 25 aprel 1902-ci ildə Bakıdakı Aleksandriyski gimnaziyada imtahan verərək müəllimlik şəhadətnaməsini alır. Bakıda 5-ci şəhər məktəbində pedoqoji fəaliyyətə başlayan A. Şaiq 1903-cü ildən Sabunçudakı altısinifli məktəbdə ana dili və şəriətdən dərs deyir. Bu illərdə o, görkəmli ədib və maarif xadimi Ə.Haqverdiyev, H.Zərdabi, N.Vəzirov, S.S.Axundov, M.Ə.Sabir, M.Hadi, A.Səhhət və H.Cavid və başqaları ilə yaxından tanış olur. Bu şəxsiyyətlər şairin milli-mənəvi inkişafında mühüm rol oynayır.

1906-cı ilin avqustunda Bakıda birinci müəllimlər qurultayı çağrılır. Qurultayın təşkilində Şaiqin böyük xidmətləri olur. Gənc müəllim ana dilinin və ədəbiyyatın tədrisinə dair təşəbbüslə çıxış edir. Qurultay H.Zərdabi, F.Köçərli, M.Mahmudbəyov, A.Şaiq və başqalarından ibarət xüsusi komissiya seçir və Azərbaycan dilində müvafiq proqram hazırlamağı onlara tapşırır. Birinci müəllimlər qurultayından heç bir il keçməmiş neçə-neçə yeni dərsliklər yaranır. "Əlifba", "Uşaq çeşməyi" (1906), "Uşaq gözlüyü" (1909), "Gülzar" (1912) və s. bu kimi dərsliklərdə onun öz əsərləri və dünya ədəbiyyatından nümunələr çap olunur. On altı səhifəlik "Uşaq çeşməyi" kitabı kiçik yaşlı uşaqların bilik səviyyəsinə uyğun hazırlanır. Bundan sonra o, müxtəlif illərdə bir-birinin ardınca "Milli qiraət", "Türk çələngi", "Ədəbiyyat dərsləri" (1919), "Türk ədəbiyyatı" (1920) adlı dərsliklər və proqramlar hazırlayır. Bu dərsliklərdə Azərbaycan klassiklərinin həyat və yaradıcılığı haqqında məlumatlar və əsərlərindən parçalar verilir.

O, həm də qadınlar üçün jurnal çıxarmaq, uşaq bağçası açmaq, kitabxana yaratmaq, kasıb uşaqları pulsuz oxutmaq kimi xeyirxah təşəbbüslər də irəli sürmüşdü. Abdulla Şaiq eyni zamanda ədəbiyyatımızı həvəslə tədqiq və təbliğ edirdi. Xaqani, Nizami, Nəsimi, Füzuli, Xətai, Vaqif, Vidadi, Zakir, M.F.Axundov, S.Ə.Şirvani, M.Ə.Sabir, A.Səhhət, M.Hadi, H.Cavid kimi sənətkarların yaradıcılıqlarının tədqiqində bir ədəbiyyatşünas alim kimi onun xidmətləri böyükdür. Abdulla Şaiq yaradıcılığında ilk mətbu əsər "Laylay" adlı uşaq şeiridir və o, 1906-cı ildən başlayaraq silsilə şeirləri ilə milli uşaq poeziyamızın incilərini yaradır. Onun bir sıra şeirləri "Dəbistan" və "Məktəb" uşaq və gənclər toplularında işıq üzü görür. Bu illərdə o, "Nicat" cəmiyyətinin idarə heyətinə üzv seçilərək, ədəbi-bədii problemlərlə, maarif və məktəb işləri ilə məşğul olur.

Yazıçı 1959-cu il iyulun 24-də Bakıda vəfat edib, Fəxri xiyabanda dəfn olunub. 1990-cı ildən Bakıda fəaliyyət göstərən Abdulla Şaiqin ev - muzeyi onun həyat və bədii yaradıcılığını, bütün ömrü boyu apardığı pedaqoji fəaliyyətini, onunla ünsiyyətdə olan yazıçı və ziyalıların fəaliyyətini işıqlandıran bir mədəniyyət ocağıdır. Müxtəlif illərdə yazdığı şeirlər, hekayələr, povestlər, romanlar, dram əsərləri isə Şaiq cəsarətinin, Şaiq dünyagörüşündəki qabaqcıl meyllərin nümayişidir...

***Yeganə BAYRAMOVA***

# "Nar" milli mətbuatın 150 illiyini media nümayəndələri ilə qeyd edib

Azərbaycan milli mətbuatının 150 illiyi münasibətilə ölkənin sərfəli mobil operatoru olan "Nar" media nümayəndələri üçün xüsusi tədbir təşkil edib. Tədbirdə müxtəlif media orqanlarını təmsil edən 30 jurnalist iştirak edib. Mobil operator jurnalistləri peşə bayramı münasibətilə təbrik edərək cəmiyyətin məlumatlandırılmasında onların rolunu yüksək qiymətləndirib.

Tədbir çərçivəsində jurnalistlər üçün həm əyləncəli proqram, həm də komanda əsaslı intellektual oyunlar təşkil olunub. Yarışların sonunda qalib komandalara müxtəlif dəyərli hədiyyələr təqdim edən "Nar"ın İctimaiyyətlə əlaqələr və korporatov ünsiyyət departamentinin direktoru Hökümə Kərimova media nümayəndələrini təbrik edib: "Milli mətbuatın 150 illiyi təkcə medianın deyil, bütövlükdə cəmiyyətin bayramıdır. Bu illər ərzində jurnalistlər daim informasiya körpüsü rolunu oynayıb, ictimaiyyətin etibar etdiyi söz daşıyıcıları olublar. "Nar" olaraq biz medianın cəmiyyətin inkişafında oynadığı rolu yüksək qiymətləndirir, jurnalistlərlə etibarlı və şəffaf əməkdaşlığa xüsusi önəm veririk". Bundan əlavə, tədbir iştirakçıları - media nümayəndələri də öz növbələrində milli mətbuatın tarixi yolundan bəhs edərək "Nar"ın bu əlamətdar günü onlarla birlikdə qeyd etməsini yüksək dəyərləndiriblər.




Qeyd edək ki, "Nar" media ilə şəffaf və dayanıqlı münasibətləri əsas tutaraq, uzun illərdir, jurnalistlər üçün əlçatan və operativ məlumat mübadiləsini təşviq edir. Bu tədbir "Nar"ın informasiya sahəsində medianın roluna verdiyi önəmi və bu istiqamətdə davamlı dəstəyini bir daha nümayiş etdirdi.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4418**
**Sifariş: 1530**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova